

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müəllim ucalıq və mənəviyyat zirvəsidir




4

SƏS
№ 183 (7108)
5 oktyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Cəbrayıldan dünyaya mesajlar!



2

*Prezident İlham Əliyev: "Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın"*

# Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir



11

## ABŞ mətbuatı: Paşinyan niyə daha Vardanyanı dəstəkləmək istəmir?



7

## Bu gün güclü geomaqnit qasırğası olacaq - XƏBƏRDARLIQ



16

## "Ermənistanın Qarabağı geri qaytarmaq şansı yoxdur, sülh bağlanmalıdır"



6

## Gecə növbəsində işləyirsinizsə...



15

## Bu futbolçu "Mançester Siti"dən 100 milyon funt sterlinq istəyir



16

# Cəbrayıldan dünyaya mesajlar!





***İşğaldan azad olunan Cəbrayıl şəhəri doğma sakinlərini qoynuna alaraq Cəbrayıl Şəhəri Gününü böyük bayram ovqatı, sevinc içərisində qeyd edir. Vətən müharibəsində oktyabrın 4-də azad olunan Cəbrayıl şəhəri ötən il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncamına əsasən, 4 oktyabr – Cəbrayıl Şəhəri Günü kimi hər il təntənəli şəkildə qeyd olunur. Sərəncam Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyır.***

İşğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Cəbrayılda da indi genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Bu il sentyabrın 26-da Cəbrayıl şəhərinə ilk köç oldu. 133 ailə, ümumən 433 nəfər öz ata-baba yurduna dönərək orada tikilən rahat, geniş və işıqlı mənzillərdə yaşamağa başlayıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak edib, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər.

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etmişdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan Bayrağını ucaltmışdı. Qədim Xudafərin körpüsünün azad edilməsi və burada bayrağımızın ucaldılması, əlbəttə ki, böyük tarixi önəm, məna daşıyırdı.

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ İŞĞALÇILARDAN AZAD EDİLMİŞ BİRİNCİ ŞƏHƏR İDİ"

Artıq Cəbrayıl şəhərinin azad olunmasından dörd il ötür. Bu gün Cəbrayıla köçmüş əzəli sakinlər 4 Oktyabr - Cəbrayıl Şəhəri Gününü doğma yurdda qeyd edirlər. "Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi". Bu sözləri Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl sakinləri ilə görüşdə söyləyib: "O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi", - deyən dövlətimizin başçısı Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərdiyini bildirib, şəhidlərimizlə əbədi fəxr edəcəyimizi vurğulayıb. "Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərmişdir, eyni zamanda, Ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəltmişdir. Bizim hamımızda inam var idi ki, bu müharibə bizim Zəfərimizlə başa çatacaq və hər yaşayış məntəqəsinin azad edilməsi, o cümlədən şəhərlərimizin azad edilməsi bu inamı daha da artırırdı", - deyən Prezident bildirib ki, Cəbrayıldan bir neçə gün sonra uğurlu Hadrut əməliyyatı keçirilmişdir.

## Prezident İlham Əliyev: "Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın"



### "BU GÜN BÜTÜN AZƏRBAYCAN XALQI QƏHRƏMAN ÖVLADLARIMIZA MİNNƏTDARLIQ HİSSİ İLƏ YAŞAYIR"

Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində 1 şəhər və 80 kənd işğaldan azad edildi. Bununla da Cəbrayıl rayonu 27 ildən sonra düşmən işğalından azad edildi və Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. "Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır", - deyən Prezident Müzəffər Ordumuzun zəfər yürüşünün bundan sonra daha sürətlə getdiyini və döyüş meydanında böyük yaşayış məntəqələrini - Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət noyabrın 8-də Şuşa şəhərini azad edildiyini qeyd edib. Bütövlükdə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi.

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordunu darmadağın edərək torpaqlarımızı azad etdi və beləliklə, ədalət, beynəlxalq hüquq bərpa olundu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, dövlət başçımızın qətiyyəti, siyasi iradəsi, prinsipial mövqeyi ölkəmizə qarşı olan hücumları darmadağın etdi və ağır məğlubiyyətə uğrayan düşmən Kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2020 ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Prezident İlham Əliyevin vurğuladığı kimi, "İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Bu gün bütün Azərbaycan xalqı qəhrəman övladlarımıza minnətdarlıq hissi ilə yaşayır, vətənpərvərlik ruhunda yetişmiş gənc nəsil vaxtilə itirilmiş torpaqlarımızı xalqımıza, dövlətimizə qaytara bilmişdir".

### BÖYÜK QAYIDIŞ COCUQ MƏRCANLI İLƏ BAŞLADI

Ermənistanın təcavüzkar xislətinin və vandalizm hərəkətlərinin bariz nümunəsi ilə digər işğal bölgələrində olduğu kimi Cəbrayıl rayonunda da üzləşmək mümkündür. İşğal dövründə Cəbrayıl tamamilə dağıdılıb, tarixi-dini abidələri yerlə-yeksan edib. İşğal dövründə rayonun 72 ümumtəhsil məktəbi, 8 xəstəxanası, 132 tarixi abidəsi, 150 mədəniyyət ocağı, 100-ə yaxın kəndi insanlığa sığmayan vandalizm əməlləri nəticəsində tar-mar olub.

30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız, Şərqi Zəngəzurumuz yenidən qurulur. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfərləri və burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Böyük Qayıdışın yüksək səviyyədə reallaşmasına xidmət edən addımların miqyasının genişliyi diqqətdən kənarda qalmır. Qarabağın tacı Şuşada, Ağdamda, Laçında və digər ərazilərdə aparılan bərpa-quruculuq işlərinin vüsəti artır. Verilən göstərişlər vaxtında və yüksək səviyyədə yerinə yetirilir. "Cəbrayılın inkişafı ilə bağlı dərhal bütün müvafiq tapşırıqlar verilmişdir", - deyən Prezident bildirib ki, ilk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi: "Çünki xüsusilə keçmiş təmas xəttinə yaxın olan rayonların minalanması daha genişmiqyaslı idi.

*Ardı Səh. 3*

# Cəbrayıldan dünyaya mesajlar!





**Əvvəli-Səh-2**

İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və mən o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir".

Böyük Qayıdış Cocuq Mərcanlı ilə başlayıb və Vətən müharibəsindəki ilk ciddi uğur da məhz Cəbrayıl şəhəri ilə bağlıdır. Cəbrayılda infrastruktur layihələri uğurla icra olunur və quruculuq meydanına çevrilib. Artıq burada Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksi fəaliyyət göstərir. Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət proqramı"na müvafiq olaraq, işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub. Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. Cəbrayılın Baş Planına əsasən, 2026-cı ilin sonunadək təqribən 3 800 nəfər şəhərdə yerləşdiriləcəkdir. 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub.

### "CƏBRAYIL ŞƏHƏRİNİN BİRİNCİ YENİ YAŞAYIŞ MƏHƏLLƏSİ İSTİFADƏYƏ VERİLİR"

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

Xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə Sərəncam imzalayıb.

Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb. "Digər infrastruktur layihələrinin icrası da uğurla, sürətlə həyata keçirilir. Təkcə Cəbrayıl rayonunda yox, bütün azad edilmiş bölgələrdə. Dünən burada olarkən biz yeni məktəbin açılışını qeyd etdik və siz də bilirsiniz ki, gələn həftədən başlayaraq uşaqlar artıq məktəbə gedəcəklər. Bu yeni məhəllədə xəstəxananın tikintisi və müvəqqəti olaraq tibb məntəqəsi də nəzərdə tutulur. Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir. Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir", - deyə Prezident vurğulayıb.

### "ARAZ VADİSİ SƏNAYE ZONASI"NDA 10-A YAXIN MÜƏSSİSƏNİN HƏM TƏMƏLİ QOYULMUŞDU"

Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması və fəaliyyətinin genişləndirilməsi xüsusi önəm kəsb edir.

İşğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, yeni əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər. Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, bu sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir. Cənab Prezidentin bildirdiyi kimi, "Təkcə dünən Cəbrayıl rayonunda yerləşən beş yeni müəssisənin təməlini qoydum. O vaxta qədər "Araz Vadisi Sənaye Zonası"nda 10-a yaxın müəssisənin həm təməli qoyulmuşdu, həm də ki, bir müəssisə artıq fəaliyyətdədir. Təkcə dünən təməlini qoyduğum müəssisələrdə mindən çox insan çalışacaq. Bu müəssisələri ərsəyə gətirən iş adamlarına da mənim tövsiyəm o idi ki, orada işləyənlərin əksəriyyəti Cəbrayıla qayıdan və qayıdacaq keçmiş köçkünlər olmalıdır. Yəni, həm yaşayış yerləri, həm bütün infrastruktur - su, qaz, elektrik enerjisi, yollar, məktəblər, xəstəxanalar, eyni zamanda, məşğulluq. Dünən təməlini qoyduğum müəssisələrin fəaliyyətə başlaması gələn il nəzərdə tutulur. Bəlkə də bəzi müəssisələrin daha genişmiqyaslı fəaliyyəti olacaq və ilyarıma ərsəyə gələcək. Yəni, bütün bu işlər bir daha onu göstərir ki, bu torpaqlara bu torpaqların əsl sahibləri qayıdıb. Mənfur düşmən 30 il ərzində bu əraziləri ancaq dağıdıb. Bizim bu görüşümüz də bu dağıntılar arasındadır."

### "SEPARATÇILARIN YUVASI OLAN O BÖLGƏLƏRİ CƏMİ BİR NEÇƏ SAAT ƏRZİNDƏ AZAD ETMİŞİK"

Müzəffər Ordumuz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ermənilərə qarşı qisas əməliyyatları keçirmiş və düşmən layiqli cəzasını aldı. 24 saatdan az davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tör-töküntülərinə qarşı antiterror tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Antiterror tədbirlərində ordumuzun ələ keçirdiyi hərbi qənimətlərin statistikası düşmənin arsenalında çoxlu sayda silah-sursatın olduğunu göstərirdi. 24 saatdan az müddətdə düşmənin tam məğlub edilməsi və minimum itkilərlə sona çatan bu əməliyyatı dünya hərb tarixinin mükəmməl örnəyi kimi dəyərləndirildi. Antiterror tədbirləri Azərbaycanın hərbi gücünün hərbi qüdrət səviyyəsinə qalxdığını, ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə davam etdirildiyini və xalqımızın qələbə əzminin sarsılmaz olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun 19 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri qəhrəmanlıq tariximizdə əbədi qalacaq. Həmişə qürur duyulası səhifə kimi xatırlanacaq. "Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın. Bu gün biz azad edilmiş torpaqlarda yaşayırıq".

***Zümrüd BAYRAMOVA***

# Müəllim ucalıq və mənəviyyat zirvəsidir




*"MÜƏLLİM DÜNYADA YEGANƏ ŞƏXSİYYƏTDİR Kİ, CƏMİYYƏT ÖZÜNÜN GƏLƏCƏYİNİ, UŞAQLARIN TƏRBİYƏSİNİ YALNIZ ONA ETİBAR EDİR"*

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV**

***Bu gün 5 oktyabr dünya ictimaiyyətinin məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günüdür. 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər.***

Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Cəmiyyəti idarə edənləri, həkimi, hakimi, alimi, elə müəllimin özünü bir sözlə, hər kəsi tərbiyə edən, bir şəxsiyyət olaraq yetişdirən müəllimdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cür məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar.

## SUVARDIĞI TORPAQDAN BOY VERƏNLƏR

"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram". - deyən



Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.

Körpə könüllərdə məşəl yandıran, onu sabahın qurucusu və yaradıcısına çevirən müəllimdir. Bu cür bir peşənin sahibi olan insanın qəlbində yanan işığın şöləsi ətrafa yayıldıqca onun nurunun fövqündə bu dünya böyük bir insanlığa xidmət edir. Ali dəyərlərə, bəşəri dəyərlərə, sülhə, əmin-amanlığa, gözəl zəkaya, xeyirxahlığa, ədalətə, birliyə, ziyalılığa və şəxsiyyətə. Bir sözlə, arzuladığımız bir cəmiyyətə. Toxum kimi səpdikləri boy atdıqca Vətən nurlanır, inkişaf edir. Suvardığı torpaqdan boy verənlər Vətən sərhədinə bir çəpər olur. Belə bir müqəddəs peşə sahibinə ən gözəl fikirlərimizi ünvanlasaq, yenə də azdır. "Hələ yazılmamış, hələ qırışsız, hamar beyinləri cilalandıran" müəllimdir! Tez durub gec yatan, bu gün sabahımızı yaradan müəllim.

"Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsilalanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm." Bu Azərbaycan müəlliminin təntənəli şəkildə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla içdiyi anddır. O and ki, gələcək illərində onu hər an məsuliyyətli olmağa, istənilən bir hərəkətinə cabavdeh olmağa səsləyir. Azərbaycana layiqli, vətənpərvər, savadlı gənclərin yetişməsində müəllimin payı müstəsnadır. Bu gün müəllim andı içən hər kəs müstəqil bir dövlətin tələblərinə cavab verən nəsil yetişdirir və onları cəmiyyətə layiqli vətəndaş kimi yetirir.

## MƏKTƏBİ HƏR ŞEYDƏN ÜSTÜN MİLLƏTİN HƏR YERDƏ, HƏR İŞDƏ ZƏFƏRİ - HAQDIR

Bu gün 44 günlük Vətən müharibəsində şəhid olan, qazi olan, ümumilikdə iştirakçı olan hər kəs on bir il parta arxasında müəllimlərdən dərs almış, Azərbaycan tarixini öyrənmişdilər. Hər il bir sinifdən o biri sinfə adlayan şagirdlər 20 Yanvar faciəsini, Xocalı soyqırımını, Birinci Qarabağ savaşını dərindən öyrənərək nə vaxtsa torpaqlarımızın işğaldan azad olunmasında iştirakçı olacaqlarına əmin idilər. Əli silahlı səngərdə düşmənə dərs verəcəkdilər. Gün gəldi, zaman yetişdi Müəllimlərindən aldığı vətənpərvərlik dərsini döyüş meydanında göstərdilər. Düşmənə dərs verən Azərbaycan ordusunun sıralarında döyüşkən ruhlu, vətəni qorumaq qüdrətində olan biləcək gənci kimi.

Xatırladaq ki, Vətən müharibəsi başlayanda Vətən, deyib cəbhəyə yol düşən müəllimlərimiz də az olmadı. Bu gün müəllimlər günündə onların adını vurğulamaq, əlbəttə ki. borcumuzdur. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıq göstərərək şəhid olan müəllimlərimiz Vüqar Vəliyev, Famil Əhmədzadə, Rəşad Məmmədov, Elvin İmaməliyev, Etiram Hüseynli, Qoşqar Ömərov, Vidadi İsrafilov, Elxan Rzayev, Xalid Nəciyev, Elgün Quliyev, Tural Rəhimov, Rəvan Lətifov, Əvdil Quliyev, Rabil İsmayılov, Emil Qurbanov və Kənan Müzəfərli. Bu adlar əbədi olaraq tariximizə yazılıb. Vaxtilə parta arxasında dərs alan bu müəllimlər zaman yetişər ki, milli ruhlu, gələcəyin vətənpərvər ruhlu övladlarını yetişdirir və tale elə gətirir ki, cəbhədə döyüşçü kimi bir meydanda vuruşurlar. Bu o müəllimlərdir ki, həm müəllim kimi vətənə layiq övladlar yetişdirib, həm də zamanı yetişəndə silaha sarılıb. Vətəndaş müəllim! Qarşınızda baş əyirik!!!

Zəfər tarixin yaşayan məktəbli bu tariximizdən gələcək nəsillərə söz açanlardan olacaqlar. Ona görə də onlara parta arxasında ikən böyük, ali sevgi ilə yoğrulmuş şəhidlərimizi keçdiyi yol, qəhrəmanlıq səhifələrinin əsas məqamları aşılanır. öyrənilir. Bəli, bu gün biz belə müəllimlərimizlə fəxr edirik. Vətən eşqi ilə yanan və yaşayan. Bu eşqi yüzlərlə, minlərlə şagirdlərinə əxz edən müəllimlər. Adınız şərəflidir.

## DÖVLƏTİN GÜCLÜ SİLAHI ELMİ İNKİŞAFIDIR

Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Dünyanın dərk edilməsi elmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, deməк, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, deməк, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Azərbaycanda təhsilə verilən qiymət və diqqət, artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir.

Müəllimlər gününüz mübarək, ƏZİZ MÜƏLLİMLƏR!

***Nəzakət ƏLƏDDİNQIZI***




# “Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bərpa olunur”



***“Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bərpa olunur. İşğaldan azad olunmuş ərazilərdə böyük işlər həyata keçirilir, regionun abadlaşdırılması üçün vacib olan tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidentinin dediyi kimi Qarabağ torpaqları artıq cənnətə çevrilməkdədir.***

Görülən real işlər bu gün özünün aydın əksini tapır. Həqiqətən də işğaldan azad olunmuş ərazilər döyüş meydanını xatırladırdı. Burada bir neçə il öncə düşmənlə qətiyyətli mübarizə aparılırdısa, bu gün dağıdılan kəndlərin bərpası uğrunda mübarizə gedir. Bu işlərin təşkilatçısı, istiqamətvericisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Ölkə rəhbəri Milli Məclisin VII çağırış ilk iclasında bir daha bildirdi ki, qarşımızda duran ən vacib məsələlərdən biri işğaldan azad olunmuş əraziləri tez bir zamanda bərpa etmək və sakinləri öz ata-baba yurdlarına köçürməkdir. Bu gün büdcədən 19 milyard manat vəsait sərf olunmuş və bundan sonra da bu istiqamətdə əsaslı tədbirlər görüləcək”.

Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Rzayev deyib.Deputat bildirib ki, artıq Zəngilana köç başlayıb: “Keçdiyimiz günlərdə Cəbrayıl da öz sakinlərini qəbul etdi və Cəbrayılın işğaldan azad olunduğu gündə ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin torpaqları ziyarət etməyi, həmin ərazilərdə işlərin gedişi ilə tanış olmağı, yeni bina və müəssisələrin təməlini qoymağı özlərinə borc hesab etdilər. Bunun üçün Azərbaycan xalqı öz liderinə böyük təşəkkürünü bildirir.Cəbrayılda çox vacib, əhəmiyyətli müəssisələrin təməli qoyuldu, şəhərdə tam orta məktəb istifadəyə verildi, Cəbrayıl rayonunda Araz Vadisi İqtisadi zonası sənaye parkında yeni müəssisələrin təməli qoyuldu.

Digər görülən bütün işlərlə də tanış olundu və lazımi tapşırıqlar verildi.Zəngilan bu gün müasir şəhərə çevrilməkdədir. Burada əvvəllər bir çox müəssisələr, yaşayış evləri, binalar, məktəb və digər müəssisələr istifadəyə verilib və səfər zamanı da ölkə rəhbəri Zəngilan rayonunda Sarıqışlaq su elektrik stansiyasının açılışında iştirak etdi, Zəngilan elektrik şəbəkəsinin rəqəmsal idarəetmə mərkəzi istifadəyə verildi. Eləcə də Zəngilan şəhərində V yaşayış kompleksinin təməli qoyuldu. Hər iki şəhərdə görülən işlər qürur doğurur. Bu insanların yaşayışı, rahatlığının təmin olunması, iqtisadi inkişaf, həmin regionlarda kənd təsərrüfatının, turizmin inkişafı baxımından çox vacibdir. Cənab Prezident daim işlərin gedişi ilə ciddi maraqlanır və onun ildə bir neçə dəfə regionlara səfər etməsi, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması ilə tanış olması göstərir ki, Qarabağın və Şərqi Zəngəzurun inkişafı diqqət mərkəzindədir və bu diqqət günü-gündən artırılır”.

***Səbinə Hüseynli***

# “Bu qanun layihəsi ayrı-seçkilik xarakteri daşıyır”



## *Azərbaycan QHT-ləri ABŞ konqresmeni Adam Şiffə açıq məktub yazıb*

ABŞ Konqresində Ermənistandakı revanşistlərə maliyyə yardımı ayrılması barədə təşəbbüsləri Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri hiddətlə qarşılayıb. AZƏRTAC xəbər verir ki, bir qrup Azərbaycan QHT-si “2024-cü il Artsax gəlirlərinin bərpası haqqında Akt” adlı qanun layihəsinin müəllifi olan ABŞ konqresmeni Adam Şiffə açıq məktubla müraciət edib.

Müraciətdə islamofob Adam Şiffə xatırladılır ki, erməni lobbi qruplarına istinad edərək, Ermənistan tərəfindən məcburi köçkün edilmiş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna diskriminativ yanaşma əxlaqi dəyərlərin təhqir edilməsidir. “750 min azərbaycanlının etnik təmizləməyə, Xocalıda soyqırımına məruz qaldığı və 30 ildən artıq bir müddət ərzində onların geri qayıtmaq hüququndan məhrum edildiyi vaxtda siz tam susdunuz. Ermənistanın yerləşdirdiyi minalar geri qayıtmaq hüququndan istifadə edən günahsız mülki insanları öldürməkdə və şikəst etməkdə davam etdiyi bir vaxtda siz yenə də susursunuz”.

Müraciətdə belə deyilir. Azərbaycan QHT-ləri Adam Şiffi saxta, qərəzli məlumatlardan ibarət sənədi geri çəkməyə özündə cəsarət tapmağa dəvət edib: “Əks halda, indiki yanaşmanız nəinki Ermənistanın və Azərbaycanın sadə vətəndaşlarına fayda verməyəcək, həmçinin mühüm əhəmiyyət kəsb edən regionda ABŞ-ın maraqlarına böyük zərbə vuracaq”.

ABŞ konqresmeni Adam Şiffə müraciəti “Qarabağ İtkin Ailələri” İctimai Birliyi, “Xankəndi” Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi, “Qərbi Azərbaycan İcması”, ”Minalar Əleyhinə Azərbaycan Kampaniyası”, “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyi, “Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı” İctimai Birliyi və digər tanınmış QHT-lərin sədrləri imzalayıblar.

Müraciət müəllifləri bildirib ki, tələsik hazırlanmış bu qanun layihəsi ayrı-seçkilik xarakteri daşıyır, birtərəfli və kontekstdən çıxarılmış, əsassız məlumatlar yığınıdır: “Biz başa düşürük ki, Azərbaycana qarşı ayrı-seçkilik etməyinizin əsas səbəbi etnik və dini simpatiyadır. Əgər bu təşəbbüs dəstəklənərsə, belə bir sənəd insan hüquqlarının və beynəlxalq hüququn pozulması olacaq”.

Qeyd edək ki, son vaxtlar Azərbaycanın vətəndaş cəmiyyəti ölkəmizə qarşı iftira kampaniyalarına qarşı ciddi reaksiya verir, bu sahədə yüksək fəallıq nümayiş etdirir, ardıcıl bəyanatlar qəbul edir. Bu günlərdə Prezident İlham Əliyev “İtkin düşmüş şəxslərin probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Azərbaycan vətəndaş cəmiyyətinin itkinlərlə bağlı müxtəlif beynəlxalq təşkilatlara ünvanlandığı müraciətlərə diqqət çəkib və bildirib ki, aidiyyəti beynəlxalq qurumlar bu müraciətlərə səssiz qalmamalı, qətiyyətli addımlar atmalıdır.

# İsveç mətbuatı: Azərbaycan COP29-un Sədri kimi iqlim böhranına diqqət yetirməyə çağırış edib

***İsveçin “Sydsvenskan” qəzetində ermənipərəst dairələr tərəfindən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabrda Bakıda keçirilməsi ilə bağlı qərəzli yazılar dərc edilib. Bundan dərhal sonra Azərbaycan Respublikasının Norveç, İsveç, Finlandiya və Danimarkadakı səfiri Zaur Əhmədovun cavab məqaləsi dərc edilib.***

“Azərbaycanın COP29-a ev sahibliyi etməsinin Ermənistanla münaqişədən sonra “təbliğat qələbəsi” kimi qiymətləndirilməsi ilə bağlı fikirlərdə bizim sülhə doğru irəliləyişimiz nəzərdən qaçılır”, - deyə Z.Əhmədov yazıb.

Diplomat qeyd edib ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən qeyri-qanuni işğalı və 1 milyon dinc sakinin ev-eşiyini tərk etməyə məcbur edilməsi nəticəsində yaranmış münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün zəruri idi. Lakin işğaldan azad edilmiş ərazilərdəki irimiqyaslı dağıntılar və minalarla çirklənmə qaçqınların geri qayıtmasına mane olur.

Səfir onu da vurğulayıb ki, 2020-ci ildən Azərbaycan Ermənistanla sülh sazişinin imzalanmasını, eləcə də Cənubi Qafqazda sabitliyə dair sülh sazişi layihəsinin imzalanmasını təklif edir, lakin Ermənistan Konstitusiyasında yer alan Azərbaycana qarşı ərazi iddiaları barışıq yolunda böyük maneədir.

“Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə çoxmillətli Azərbaycanın tərkibində qalmaq təklifinə məhəl qoyulmayıb. Onların Ermənistana könüllü köçməsi məcburi addım kimi deyil, uzun illər separatçı rəvayətlərin nəticəsi kimi başa düşülməlidir”, - deyə diplomat yazıb.

Məqalədə Z.Əhmədov diqqətə çatdırıb ki, Olimpiya barışığından ruhlanaraq, Azərbaycan COP29-un Sədri kimi özünün flaqman təşəbbüsü - konfrans zamanı birgə atəşkəsə və iqlim böhranına diqqət yetirməyə çağırış edib. Bu təşəbbüs ekosistemləri məhv edən münaqişələr və iqlim dəyişmələri arasında dərin əlaqəni vurğulayır.

Azərbaycan təkcə neft və qaz istehsalçısı deyil, indi bərpa olunan enerji mənbələrinə keçir. 2030-cu ilə qədər enerjimizin 30 faizi bərpa olunan mənbələrdən olacaq və biz sualtı Qara dəniz kabeli ilə yaşıl elektrik enerjisini Avropaya ixrac etməyi planlaşdırırıq”, - deyə Z.Əhmədov məqaləsində ümumiləşdirib.


SYDSVENSKAN

Malmö Lund Sport Näringsliv Dygnet runt Kultur Opinion Mer

Klimattoppmötet COP29

”COP29 är inspirerat av den olympiska vapenvilan”

3 oktober 2024 15:00

Sedan 2020 har Azerbajdzjan erbjudit fred till Armenien, inklusive ett utkast till fredsavtal för att stabilisera södra Kaukasus. Även om en stor del av avtalet redan har godkänts av parterna, kvarstår Armeniens vägran att ta bort sina territoriella anspråk på Azerbajdzjan, som är inskrivna i dess konstitution, som ett stort hinder.

COP29 är en möjlighet för konstruktivt samarbete, skriver Zaur Ahmadov som är Azerbajdzjans ambassadör i Sverige

# “Ermənistanın Qarabağı geri qaytarmaq şansı yoxdur, sülh bağlanmalıdır”

***Tanınmış rusiyalı rejissor və ictimai xadim Karen Şahnazarov “Moskva-Baku” portalına müsahibəsində Cənubi Qafqazdakı mövcud vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***






**- Karen Georgiyeviç, biz Rusiya ilə Qərb arasındakı münaqişə prizmasından Cənubi Qafqazdakı vəziyyətdən danışmaq istərdik. Dörd il əvvəl Azərbaycan və Ermənistan arasında 30 ildən artıqdır davam edən münaqişənin nizama salınmasında Rusiya vasitəçi oldu. Lakin 4 il ərzində İrəvan üçtərəfli sazişin bir sıra bəndlərini yerinə yetirməyib. Bunun fonunda o, açıq şəkildə Qərbə yaxınlaşır. Qərb Cənubi Qafqazda nəyə nail olmağa çalışır?**

- Mənim prinsipial mövqeyim ondan ibarətdir ki, Azərbaycan və Ermənistan sülh və əmin-amanlıq şəraitində yaşamalıdırlar. Ölkələr və xalqlar bir-birindən qaça bilməz. Ona görə də mən dinc yanaşı yaşamanın və yeri gəlmişkən mövcud olan ən mehriban, mehriban qonşuluq əlaqələrinin qurulmasının tərəfdarıyam. Sülh naminə keçmiş problemlər unudulmalı və münasibətlər yaxşılaşdırılmalıdır.

Qərbin Cənubi Qafqazda nə istədiyi göz qabağındadır: məncə, məqsəd sadədir, o, Ermənistanda Rusiyada bazasının deyil, öz bazasının yerləşdirməsini istəyir. Bu, qərblilər üçün böyük hədiyyə olardı. Axı Cənubi Qafqaz onlar üçün çox dadlı yerdir. Qərb o zaman özünə qala yarada bilər, sonra Cənubi Qafqaza nəzarət edə bilər, onun haqqında hər cür məlumat toplayar və region ölkələrinin boğazında sümük olar. Qərbin səsləndirdiyi bütün digər səbəblər sadəcə lirizmdir. Guya onlar erməni xalqına ciddi fikir verirlər? Bu sadəcə örtükdür. Qərb Xəzər bölgəsinə də nəzarət etməyi hədəfləyir. Bölgə ölkələrini itaətə gətirməyi hədəfləyir. Bu baza İran, Azərbaycan, Rusiya və hətta Türkiyə üçün təhlükəyə çevriləcək. NATO ölkəsi olsa da, Qərb bazası ona da problem yaradır. Qərbdə isə Türkiyəyə inanmırlar və bəyənmirlər. İlk növbədə Qərbin istəkləri bu ölkələrə yönəlib. Və sonra, mənim fikrimcə, Rusiyaya. Əgər onlar Ermənistanda baza qura bilsələr, bununla da faktiki olaraq Rusiya Federasiyasını oradan sıxışdırıb çıxaracaqlar. Vəziyyət region ölkələri üçün təhlükəlidir.

Ermənistanın özü üçün də Qərblə bu kəskin yaxınlaşma yaxşı heç nə ilə bitə bilməz. Amma İrəvanın bundan nəsə qazanacağına dair bəzi illüziyalar var. Düşünürəm ki, o, ancaq məğlub olacaq.

**- Rusiya Xarici İşlər Nazirliyi dəfələrlə qeyd edib ki, Ermənistan tərəfinə bir neçə dəfə Rusiya platformasında Azərbaycan tərəfi ilə danışıqlar aparmaq təklif edilib, lakin İrəvan bundan imtina edib. Eyni zamanda, Qərb məkanlarında belə görüşlərin mütəmadi olaraq keçirildiyini görürük. Qərb (xüsusən də ABŞ) Azərbaycanla Ermənistan arasında sülhə nail olmaq istədiyini daim yayımlayır. Bunun arxasında əslində nə dayanır?**

- Qərb sadəcə olaraq Cənubi Qafqazda Rusiyanın yerini tutmaq istəyir. Ermənistanın indiki rəhbərliyi təəssüf ki, qərbyönlüdür. Və bu böyük səhvdir. Və o, belə demək mümkünsə, bu istiqamətdə uğurla irəliləyir və bundan müəyyən dividendlər alacağını gözləyir. Amma dediyim kimi, Ermənistan regionda düşmənçilikdən başqa heç nə almayacaq.

Mən görürəm ki, Azərbaycan kifayət qədər müstəqil, suveren siyasət aparır. Və İran. Türkiyə də kifayət qədər müstəqil dövlətdir. Bu, Qərbin xoşuna gələ bilməz.

Artıq bəlli olub ki, İlham Əliyev çox böyük miqyaslı, regional siyasətdən qat-qat böyük siyasətçidir. O, siyasi arenada çox böyüyüb, hər şeyə öz baxışı, uzaqgörən, öz ideyası olan siyasətçidir. Bu, dövlət başçısı üçün əsas ideyadır- öz ölkəsinin suverenliyi, müstəqilliyi ideyasıdır. Və mən deyərdim ki, Əliyev bütün Cənubi Qafqazın strukturuna təsir edir və qonşular arasında sülhə müsbət təsir göstərməyə çalışır. Onun qarşısında, mənim fikrimcə, yalnız daxili olanlardan daha böyük olan vəzifələr durur. Bu mənada ona, mənim birmənalı hörmətim var. Təəssüf ki, eyni şeyi onun erməni həmkarları haqqında demək olmaz.

**- İndi geosiyasi baxımdan mərkəzi gündəmlərdən biri Qərb hegemonluğunu əvəz edəcək çoxqütblü dünyanın qurulmasıdır. Suveren, müstəqil dövlətlərin və Qərbin birqütblü hegemonluğunun bu qlobal “döyüşündə” kim önə çıxacaq?**

- Məncə, çoxqütblü dünya tarixi qaçılmazdır. “Tarixi məqsədəuyğunluq” kimi bir şey var. Tarixə kim nəzarət edir - Allah, ya başqası - hər kəs özü nəticəyə gəlir. Amma görünən odur ki, tarixin öz məntiqi var. Bu məntiqə əsaslansaq, çoxqütblü dünyanın formalaşması qaçılmaz bir vəziyyətdir. Aydındır ki, ABŞ-ın rəhbərlik etdiyi Qərb ölkələri bununla qətiyyən razılaşmır, çünki onlar üçün bu, çox uzun müddət davam edən hegemonluğunun itirilməsi demək olardı. Lakin çoxqütblülük istiqamətində bütün bu dəyişikliklər obyektiv səbəblər fonunda baş verir: Asiya, xüsusən də Çin və digər şərq ölkələri geosiyasi və geoiqtisadi baxımdan irəliləyir. Və məncə, belə dəyişikliklərin labüdlüyünü hiss edən dövlətlərin rəhbərləri bundan ancaq faydalanacaq və öz ölkələrini irəli aparacaqlar.

Bunu cənab Əliyev hiss edir. Və başa düşür ki, bu gələcəkdir. Tarixə uyğun gələn və özünü tarixin sağlam tərəfində tapanlar bundan daha çox divident alacaqlar. Digər məsələ budur ki, bu proses təbii ki, ləng gedir, amma qlobal xarakter daşıyır. Belə proseslər vaxt aparır və şiddətli mübarizə şəraitində baş verəcək. Böyük siyasətdə heç kim sadəcə olaraq hakimiyyəti itirmək istəmir. Lakin gələcək məhz dünyanın çoxqütblü, daha ədalətli sistemə doğru getdiyini başa düşənlərin tərəfindədir. Bir sivilizasiyanın bütün dünyanı idarə etdiyi dövr başa çatdı. Bu artıq köhnəlmiş modeldir.

**- Bir tərəfdən Azərbaycan və Ermənistan sülh sazişinin imzalanmasının zəruri olduğunu deyir, digər tərəfdən də bu yolda obyektiv problemlərin olduğunu görürük. Azərbaycan hakimiyyəti Ermənistan Konstitusiyasında Qarabağa ərazi iddialarının olmasını göstərir və qeyd edir ki, tam və hərtərəfli sülh üçün bu iddiaların Konstitusiyadan çıxarılmasının yaxşı olardı. İrəvan dalana dirənir və buna kifayət qədər birmənalı cavab vermir...**

- Artıq qeyd etdiyim kimi, mən Ermənistanın hazırkı hakimiyyətinin böyük dəstəkçisi deyiləm, lakin bu halda Paşinyanın mövqeyini başa düşürəm. Aydındır ki, Qarabağ Azərbaycanın tərkib hissəsi olub, onun tərkibində qalacağı da göz qabağındadır. Amma Ermənistanın baş nazirinin bir siyasətçi kimi İkinci Qarabağ müharibəsinin məğlubiyyətindən və 2023-cü ilin sentyabr hadisələrindən sonra yenə də Konstitusiyadan Qarabağa istinadla bağlı istisnaya imza atması- bu, əlavə olaraq özünün çox böyük maneələrə məruz qalması deməkdir. Ermənistanın bütün məğlubiyyətlərində artıq onu günahkar hesab edən erməni cəmiyyəti, son illərin bütün hadisələrindən hələ də emosional olaraq soyumamış cəmiyyət. Cəmiyyətdən Ermənistanın baş nazirinə qarşı çoxlu şikayətlər var. Erməniləri də başa düşmək olar. Məncə, zaman hər şeyin dərmanıdır. Mənə elə gəlir ki, bu vəziyyətdə Azərbaycan və Ermənistan hansısa kompromis tapmalıdırlar. Əsas odur ki, sülh müqaviləsi imzalansın. Və bundan sonra Azərbaycanla Ermənistan arasında real dövlətlərarası qarşılıqlı fəaliyyət başlaya bilər. Sonra xalqlar arasında təmaslarla köhnə yaralar sağalmağa başlayacaq, insanlar yavaş-yavaş sakitləşməyə başlayacaqlar. Ehtiraslar azalacaq. Mən qədim Qarabağ ailəsindənəm. Və mənim üçün Azərbaycanla Ermənistan arasındakı vəziyyət kənar məsələ deyil. Əminəm ki, sülh sazişinin imzalanması Bakı üçün də çox vacibdir. İmzalanandan sonra isə müəyyən müddətdən sonra Ermənistan Konstitusiyasından Qarabağa dair istinadların çıxarılması məsələsi yenidən gündəmə gələ bilər.

Eşitdiyimə görə, Azərbaycan hakimiyyəti mütəmadi olaraq deyir ki, erməniləri Qarabağdan heç kim qovmayıb və eyni qaydada onlara geri qayıtmağı, sakit, dolğun həyat təmin etməyi təklif edir. Məncə, bu düzgün yanaşmadır. Burada da bir növ kompromis tapmaq düzgün olardı. İnsanlara haqq verin, onlara qayğı göstərin. Hamısını sıralamağa çalışın. Ermənilər son nəticədə Azərbaycanın tərkibində yaşayıblar, eləcə də əksinə. Məncə, kənardan təxribat törədilən o faciəli hadisələrə qədər azərbaycanlılar və ermənilər bir-birinə çox yaxın idilər və biz bir-birimizdən qaça bilmərik. Və mehriban qonşuluq hər iki tərəfin xeyrinədir.

O ki qaldı Ermənistanın gələcəkdə sülh sazişindən imtina etməsi riskinə... Və bununla bağlı Konstitusiyada Qarabağa işarələrin işlədilməsi, məncə, Ermənistanda hansı rəhbər hakimiyyətə gəlirsə gəlsin, onun artıq Qarabağı qaytarmaq və ya hərbi qisas almaq heç bir şansı, qanuni qüvvəsi yoxdur. Azərbaycan təbii ki, hər mənada, o cümlədən hərbi baxımdan daha güclü ölkədir, Ermənistandan daha zəngin, əhalisi daha çox olan ölkədir.

**- Eyni zamanda Ermənistanda müxalifət az qala revanş tələb edir, Qarabağın qaytarılması ilə bağlı şüarlarla çıxır...**

- Ermənilər bütün qafqazlılar kimi güneyli, temperamentli xalqdır. Aydındır ki, ermənilər üçün baş verənlərin hamısı ciddi yaradır. Və cəmiyyətin və bəzi siyasi qüvvələrin bu durumu çox uzun müddət davam edəcək. Əslində heç bir qisas almaq mümkün deyil. Və məncə, Ermənistanın heç bir lideri bunun üçün müharibəyə başlamayacaq.

**- Amma sual yaranır: əgər Qərb Ermənistanı silahlandırırsa, onun təhlükəsizlik sistemini, dövlətin inkişafının hər cür əsas sahələrini nəzarətə götürürsə, Paşinyan Qərbin dəstəyi ilə gələcəkdə qisas almaq ideyasını özündə saxlayırmı?**

- Əgər onun belə bir fikri varsa, bu, ən böyük axmaqlıq olardı. Bu isə Ermənistan üçün, erməni xalqı üçün mütləq fəlakət olacaq. Ermənistanın qisas haqqında düşünməsini düzgün hesab etmirəm. Ermənistanın qisasını almaqdan danışmaq sadəcə intihardır. Belə bir ssenari Cənubi Qafqazı növbəti qan gölünə qərq edəcək. Ermənistan üçün isə bu, dəhşətli ssenari olardı. Amma açığını deyim ki, Paşinyanın qisas almaq istədiyinə inanmıram. O, elə siyasətçiyə oxşamır. Və mənə elə gəlir ki, Qərb Ermənistanı nəzarətə götürsə, respublikanı müharibəyə sövq etmək onun maraqlarına uyğun olmayacaq. Onun əsas məqsədi Ermənistanda hava qüvvələri bazası əldə etmək və Cənubi Qafqaza nəzarət etməyə çalışmaqdır. Sonra da oradan Azərbaycanı, İranı, Türkiyəni hədələyəcək. O, bölgədəki mövcudluğunu güclü arqumentə çevirmək istəyəcək.

***Tərcümə - Elçin Bayramlı***

# "Cəbrayıllılar daha gözəl, müasir Cəbrayıla, öz ata yurdlarına dönürlər"



*"Cəbrayıl rayonu coğrafi cəhətdən Azərbaycan üçün çox əhəmiyyətli ərazidə yerləşir. Eyni zamanda rayon yeraltı, yerüstü sərvətlərlə zəngindir. Cəbrayıl rayonu sement, mərmər, mişar daşı və bir çox tikinti materialları ilə çox zəngindir. Cəbrayıl rayonunun torpağı olduqca münbit olduğundan əhali üzümçülük, baramaçılıq, heyvandarlıq ilə məşğul olublar.*



İşğaldan əvvəl Cəbrayıl rayonunun əhalisi 52 min nəfər olub". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Kamilə Əliyeva deyib. Deputat bildirib ki, 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri Cəbrayıl rayonunu işğal etdilər: "Cəbrayıllılar Azərbaycan əsgərləri ilə birlikdə öz ata yurdları uğrunda mərdliklə vuruşdular. 362 şəhid, 191 nəfər əlil oldu, 6 nəfər cəbrayıllı Milli Qəhrəman adına layiq görüldü. Məcburi köçkün düşən cəbrayıllılar respublikamızın 58 rayonunda məskunlaşdırıldı. Hər birimiz kimi cəbrayıllılar da inanırdılar ki, Ali Baş Komandan cənab İlham Əliyev işğal altında olan torpaqlarımızı işğaldan azad edəcək.

Müzəffər Ali Baş Komandan Prezident cənab İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin hərbi təxribatının qarşısını alaraq 27 sentyabr 2020-ci ildə əks hücum əməliyyatlarına başladı. Vətən müharibəsi kimi tarixə düşən bu savaşın elə ilk günündən Azərbaycan oğulları böyük igidlik, qəhrəmanlıq göstərdilər. Müharibənin ilk günü - 27 sentyabr tarixində ordumuz Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərini, 3 oktyabrda 5 kəndi işğaldan azad etdi. 4 oktyabr tarixində rəşadətli ordumuz cəbrayıllılara, o cümlədən, bütün xalqımıza böyük sevinc bəxş etdi. Cəbrayıl şəhəri də daxil olmaqla rayonun daha 9 kəndi erməni işğalından azad edildi. Cəbrayıl rayonu ərazisində həyata keçirilən uğurlu hərbi əməliyyatlar nəticəsində bir şəhər, 80 kənd erməni işğalından azad edildi. Bununla da Cəbrayıl rayonu 27 illik işğaldan sonra azad edildi.

2020-ci il noyabrın 20-də "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22775 hərbi qulluqçusu "Cəbrayılın işğaldan azad olunmasına" görə medalı ilə təltif edilmişdir.

Ölkəmizin başçısı cənab İlham Əliyevin Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsündə Azərbaycan bayrağını dalğalandırması böyük tarixi və siyasi əhəmiyyət kəsb etdi. Azərbaycan Ordusunun cəsur əsgər və zabitləri böyük qəhrəmanlıq və şücaət göstərərək Ermənistan ordusunun Cəbrayıl ərazisində bir neçə xətdən ibarət müdafiə istehkamlarını darmadağın etdi. Cəbrayılın işğaldan azad edilməsi ordumuzda böyük ruh yüksəkliyi yaratdı. Ordumuz Cəbrayılın ardınca Xocavənd rayonunun cənub kəndlərini işğaldan azad etdi və strateji əhəmiyyətə malik Hadrut qəsəbəsi istiqamətində irəlilədi. Üstəlik Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonlarının cənub hissəsi işğaldan azad edildi, Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü. Artıq Cəbrayıl rayonunda böyük quruculuq işləri davam etdirilir. Müasir standartlara cavab verən 4-5 zolaqdan ibarət yollar çəkilir. Böyük infrastruktur layihələr həyata keçirilir. "Araz Vadisi İqtisadi Zonası"-nın yaradılması Cəbrayıl rayonu ilə yanaşı regionun inkişafı üçün çox önəmli hadisədir. Prezident cənab İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İşğaldan azad edilmiş əraziləri üzrə şəhər günü təsis edilmişdir. Həmin Sərəncama əsasən 4 oktyabr Cəbrayıl şəhəri günü kimi qeyd edilib. Müharibə başa çatdıqdan sonra Prezident cənab İlham Əliyev dəfələrlə Cəbrayıl rayonuna səfər edib. Ölkə başçımız bu səfərlər zamanı çoxlu sayda sosial obyektlərin, yeni müəssisələrin, yaşayış binalarının təməlqoyma mərasimlərində iştirak edib. Artıq cəbrayıllılar daha gözəl, müasir Cəbrayıla, öz ata yurdlarına dönürlər".

***Səbinə Hüseynli***

# Türkiyəli parlamentari: Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasına çalışmalıyıq



"Avropa Şurası Parlament Assambleyası iki əsas risklə üz-üzədir. Bunlardan birincisi özünü kontinentallıqla məhdudlaşdırmaq, ikincisi isə onun üzv dövlətləri arasında bərabər münasibətə hörmət etməməkdir. Avropa Şurasının təsis Nizamnaməsində nəzərdə tutulduğu kimi, bu təsisat üzvlər arasında daha sıx birlik əldə etmək məqsədilə yaradılıb." Bu fikirləri türkiyəli parlamentari Zeynep Yıldız AŞPA-nın payız sessiyası çərçivəsində keçirilən cari debatlarda çıxışı zamanı söyləyib.

"Qarabağ Ermənistan işğalı altında olanda burada Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin tərkib hissəsi olduğunu bəyan edən çoxsaylı çıxışlar edilirdi. Nə üçün bu gün Avropa Şurasının üzv dövləti Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən və məcburi köçkünlərini 30 ildən sonra doğma yurdlarına qaytarmaqla bağlı tədbirlər görüləndə eyni mövqedən çıxışlar olmur? Qəbul etməliyik ki, yanaşmada fərqlilik var", - deyən Z. Yıldız bildirib ki, üzv dövlətlərə ikili standartlarla yanaşmaq AŞPA-nın nüfuzunu azaldır və onu bir daha kontinental çərçivədə məhdudlaşdırır. Parlamentari vurğulayıb ki, Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri təsdiqlənərək onun AŞPA-ya qayıtması müzakirə olunmalıdır. Azərbaycan nümayəndə heyəti olmadan bu ölkəyə qarşı müxtəlif fikirlər səsləndirilir ki, bu da dialoq prinsipinin pozulmasıdır və bu, ədalətli deyil.

"Bu vəziyyət onu göstərir ki, biz qurumumuzun təməlini təşkil edən rasional yanaşmalardan uzaqlaşırıq. Azərbaycan nümayəndə heyətinin üzvlərinin burada olmadıqları, fikirlərini bölüşə bilmədikləri vaxtda burada Azərbaycanla bağlı məsələlərin müzakirəsi üzv dövlətlərin demokratik səviyyəsinin yüksəlməsinə töhfə verməyəcək.

Azərbaycan nümayəndə heyətinin olmadığı bu zalda bu ölkəyə qarşı mənfi fikirlər söyləməkdənsə, onun Avropa Şurası Parlament Assambleyasına qayıtmasına, demokratik və çoxtərəfli dialoq vasitəsini bərpa etməyə çalışmalıyıq", - deyə türkiyəli parlamentari bildirib. Qeyd edilib ki, Avropa Şurası Parlament Assambleyasının münaqişələr yaratmaq deyil, onları həll etmək funksiyası var və Azərbaycanı sıxışdırmaq əvəzinə, AŞPA-nın plüralist tərkibini qoruyub saxlamaq zəruridir.

# ABŞ mətbuatı: Paşinyan niyə daha Vardanyanı dəstəkləmək istəmir?

Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Paşinyan niyə daha Vardanyanı dəstəkləmək istəmir?" sərlövhəli məqaləsi yayımlanıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məqalədə Ermənistanın baş naziri Paşinyanın Rusiyanın Ermənistan siyasətində, xüsusilə də mövcud hakimiyyəti devirmək cəhdlərində Vardanyanın da müəyyən rolunun olması ehtimalını nəzərə alaraq onun Azərbaycan məhbusluğunda qalmasından narahatlıq keçirmədiyi diqqətə çatdırılıb. Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfərindən ermənilərin ehtiyatlandığı, bunu özlərinin Moskvadan uzaqlaşmaq məqsədlərinə təhlükə kimi gördükləri yazılıb.

Eyni zamanda, Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü dəstəkləyərək bu ölkəyə humanitar yardım göndərən, Qərbi Rusiya neftindən və qazından asılılıqdan xilas edən çoxvektorlu siyasətinə də ermənilərin düşmən münasibət bəslədiyi qeyd olunub.

Politoloq Ukraynanın NATO-ya daxil olmaq istəyinin nəticələrini görən Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunu ağıllı addım kimi dəyərləndirib. Müəllifin fikrincə Ermənistanın Rusiyadan uğurla uzaqlaşması Azərbaycanla sülh müqaviləsi bağlamasından asılıdır. Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:

https://foreignpolicyblogs.com/2024/10/01/why-pashinyan-does-not-want-to-support-vardanyan-anymore/



TƏHLİL

# Fransanın vandal siyasəti dünyanı ayağa qaldırır

***Dünyada elə dövlətlər var ki, onlar üzdə planetin təhlükəsizliyinə, xalqların dinc, yanaşı yaşamasına, sabitliyin təmin olunmasına töhfələr verməyə çalışdıqlarını bəyan edirlər. Hətta bu kimi gəlişi gözəl bəyanatları beynəlxalq təşkilatların yüksək tribunalarından da səsləndirirlər. Reallıqda isə onların fikirlərinin sadəcə söz yığnağından başqa bir şey olmadığı məlum olur. Aydın olur ki, əslində ABŞ, Fransa, Almaniya, Hindistan və onların təsiri altında olan AŞPA kimi beynəlxalq təşkilatlar dünyada sülhə və təhlükəsizliyə birbaşa təhdid yaradırlar.***




Xüsusilə də Fransa amansız və qəddar siyasət aparır. Dünyada sabit, sakit bölgələrə müdaxilə etməklə orada vəziyyəti ağırlaşdırmağa, qarşıdurmalar və müharibələr yaratmağa cəhdlər göstərir. Bu baxımdan tərəqqipərvər xalqlar Almaniyadan sonra bəşəriyyətin ən qorxulu canisinin Fransa olduğunu qeyd edirlər. Məhz bu cani dövlət dəfələrlə bacısı hesab etdiyi Ermənistan vasitəsi ilə Cənubi Qafqazda sabitliyi pozmağa çalışır. Paşinyan rejiminə hər cür dağıdıcı gücə malik silah-sursatla təmin edən Makron hakimiyyəti bununla regionda münaqişə ocağını qızışdırmağa ümid edir. Lakin anlamır ki, Ermənistan 44 günlük Vətən Müharibəsində Azərbaycanın qüdrətli ordusu tərəfindən elə bir sarsıdıcı zərbə alıb ki, bundan sonra on illər keçsə də özünə gələ, toparlana bilməz. Ona görə də, Makronun Ermənistandakı revanşistləri ruhlandırması onları müxtəlif dəmir yığnağı ilə təchiz etməsi əhəmiyyətsizdir. Əgər baş qaldırmağa cəhdlər olarsa, o zaman Azərbaycan Ermənistan adlı quruluşun mövcudluğuna son qoyar.





## Fransanın müstəmləkə siyasətinə qarşı etirazlar artır

Bu gün dünyanın sülh və əmin-amanlıq içində yaşadığı bir dövrdə Fransa müstəmləkə siyasəti aparır, azadlıq uğrunda mübarizəyə qalxanları ən qəddar formada sıradan çıxarır. Lakin görünən ondan ibarətdir ki, Korsika, Fransız Qvianası, Qvadelup, Martinik, Maohi Nui (Fransız Polineziyası), Kanaki (Yeni Kaledoniya) və digər müstəmləkə altında olan ərazilərdə xalqlar öz azadlıq mübarizələrini davam etdirirlər. Bu məsələdə onlara Bakı Təşəbbüs Qrupu da hər cür dəstəyi göstərir. Bakıda keçirdiyi mətbuat konfransında Fransanın müstəmləkəçilik siyasətinə qarşı və anti-imperialist mövqeləri ilə tanınan Pan-Afrikaçı siyasi fəal, jurnalist Kemi Seba bildirib ki, o qlobal neokolonializmə qarşı mübarizədə Azərbaycan tərəfi ilə əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu bildirib. Qeyd edib ki, Şarl De Qollun hakimiyyəti dövründə Fransa bizim ərazilərdə öz adamlarını yerləşdirməyə başlamışdı: “Biz beynəlxalq təşkilat olaraq dünyanın hər tərəfində yaşayan afrikalıların yanında olmağa çalışırıq. Mən hər zaman Fransanın Afrika xalqlarına qarşı təzyiqlərinin şahidi olmuşam. Orada mən fransızların qaradərililərə qarşı irqçi davranışının şahidi olmuşam. Afrikada mən siyasi jurnalist olaraq işlədiyim dövrdə Fransa müstəmləkəçiliyinin regionda vəziyyəti pisləşdirdiyinin şahidi olmuşam. Hələ Şarl De Qollun hakimiyyəti dövründə Fransa bizim ərazilərdə öz adamlarını yerləşdirməyə başlamışdı. Mən öz təşkilatım çərçivəsində uzun müddətdir Fransanın neokolonializm siyasətinə qarşı hərəkat istiqamətində fəaliyyətə başlamışam. Həmin dövr Fransanın bizim ərazilərimizdəki hərbi bazalarına qarşı mübarizənin başlanğıcı oldu”.



## Fransa müstəmləkəçiliyə son qoymasa mövcudluğunu itirə bilər

Bakı Təşəbbüs Qrupu (BTQ) yalnız Azərbaycanda deyil vaxtaşırı olaraq beynəlxalq təşkilatların ofislərində Fransanın zorakılığı, xalqları əsarətində saxlamasından bəhs edən tədbirlər təşkil edir, yüksək tribunalardan rəsmi Parisin vəhşiliklərinə etiraz bəyanatları səsləndirir. Cari ilin iyunun 20-də Bakı Təşəbbüs Qrupunun BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında “Müstəqilliyə və fundamental azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin rolu” adlı beynəlxalq konfrans da belə tədbirlərdən biri olmuşdur. Konfransda Fransa və Niderlandın işğalı altında olan 8 ərazidən - Korsika, Fransız Qvianası, Qvadelup, Martinik, Maohi Nui (Fransız Polineziyası), Kanaki (Yeni Kaledoniya), eləcə də Sent-Martin, Bonayre, həmçinin ABŞ, Fransa, Braziliya, Qəmər Adaları İttifaqı, Qayana və Niderlanddan rəsmi şəxslər, müstəqillik hərəkatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər, deputatlar və tədqiqatçılar iştirak ediblər. Eyni zamanda, El-Salvador, Argentina, Suriya, Əlcəzair, Braziliya, Fələstin və Qəmər Adaları İttifaqının BMT-dəki Daimi nümayəndəliklərinin diplomatları konfransın işinə qatılıb.

Oktyabrın 3-də isə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Afrikada Fransanın neokolonializm siyasətinə” həsr edilmiş beynəlxalq konfrans keçirilib. Konfransda Seneqaldan, Burkina-Fasodan, Kamerundan, Qvineya-Bisaudan, Konqo Demokratik Respublikasından, Mavritaniyadan, Zimbabvedən, Nigerdən, Fransadan və Fransanın əsarəti altında olan Mayot adasından nümayəndələr hüquqşünaslar, həmçinin QHT rəhbərləri, siyasətçilər və ekspertlər iştirak ediblər. Konfransda ”Delimitasiyası olunmuş, lakin azad olmayan: Neokolonializmin Afrikada yeni təzahürləri”, ”Afrikanın inkişafı üçün iqtisadiyyatın dekolonizasiyası”, ”Afrikalıların kimliyin müəyyənləşdirilməsi üçün sosial və mədəni dirçəliş” mövzularında sessiyalar keçirilib. Sessiyalarda çıxış edən mavritaniyalı jurnalist Abdarahman Von bildirib ki, Afrika ölkələri Fransa müstəmləkəçiliyindən əziyyət çəkən ölkələrdəndir: ““Bu müstəmləkə vəziyyəti qadınlarımızın, uşaqlarımızın ləyaqətlə yaşamalarına imkan vermir. Bizə qarşı diskriminasiya siyasəti həyata keçirilir, qul kimi yanaşılır. İnanırıq ki, müstəmləkəçiliyə qarşı bu mübarizəmizi qazanacağıq. Ümidvaram, icmalarımız bu mübarizənin nə demək olduğunu anlayacaq və birləşəcək, nəticədə biz qalib gələcəyik”. Milli Məclisin deputatı Nizami Səfərov tədbirdə çıxışında insanlıq əleyhinə cinayətlərin konsepsiyası məhz Afrikada hələ də izləri görünən Trans-Atlantik qul ticarəti ilə bağlı olduğunu bildirib: “Bunun təsdiqini hələ XIX əsrdə dərc edilən və beynəlxalq hüquqa həsr olunmuş bir çox dərsliklərdə, ədəbiyyatlarda görmək olar. İnsanlıq əleyhinə cinayətlərin mənbəyi məhz quldarlıq, Afrikada baş verən qul ticarətidir. Şübhəsiz ki, Fransa bu cinayətin törədilməsində çox fəal rol oynayıb”.



Nizami Səfərov çıxışında onu da qeyd edib ki, qul ticarətinə görə Fransa tərəfindən reparasiyaların ödənilməsinin ən mühüm məsələlərdən biridir: “1998-ci ildə Qayanadan olan deputat Kristian Tobira Fransa parlamentində çıxış edib və xüsusi qanun layihəsi təklif edib. Həmin qanun layihəsində iki məsələ öz əksini tapmalı idi: Fransanın daxili cinayət qanunvericiliyinə uyğun olaraq quldarlığın, qul ticarətinin insanlıq əleyhinə cinayət kimi tanınması və reparasiya məsələsi, ümumiyyətlə, beynəlxalq müstəvidə reparasiya və kompensasiya. Ancaq çox təəssüf ki, bu məsələ Afrika xalqlarına, Afrika dövlətlərinə münasibətdə qanun layihəsindən kənarda qaldı”.

## Xalqlar var ki, 500 ildir Fransanın zülmündən əziyyət çəkir

Konfransda çıxış edən fəal Kemi Seba “neoliberalizm” adı altında Qərb dəyərlərinin bir çox ölkələrə yeridildiyini bildirib. Onun sözlərinə görə, lakin bu dəyərlər bir çox ölkədə müqavimətlə qarşılanır. Berlin divarının dağıdılmasından sonra Avropa dövlətləri Mali, Benin, Burkina-Faso və digər Afrika ölkələrini bir-birindən ayırmağa çalışdılar. Lakin indiki Afrika gəncləri bunu bilir və buna imkan vermirlər: “Azərbaycan hazırda Fransa ilə gərginlik yaşayır. Siz nəzərə alın ki, biz 500 ildir bu ölkənin zülmündən əziyyət çəkirik. Bəzi şəxslər panafrikanizmlə bağlı böyük tədbirin Bakıda keçirilməsini təəccüblə qarşılayırlar. Lakin ümumi vəziyyətə nəzər yetirsək görərik ki, Azərbaycan Qoşulmama Hərəkatında fəal iştirak edir, deməli, dekolonizasiyaya qarşı ən ciddi mübarizə aparanlar sırasındadır. Azərbaycanın Fransanın insan hüquqları ilə bağlı bəyanatlarından artıq təngə gəldiyini bilirik. Afrikalılara gəldikdə, insan hüquqları fransız oliqarxiyasının yadına düşmür. Rəsmi Parisin Qarabağla bağlı mövqeyi Afrika ölkələri, Qviana, Martinika və Qvadelupaya münasibətilə daban-dabana ziddir. Fransa Qarabağdan fərqli olaraq Reünyon və Yeni Kaledoniyada öz müqəddəratını təyinetmə məsələsindən danışmır”.

Malidən olan QHT rəhbəri Kabin Dumbia, Konqo Kinşasa Dünyəvilik Evinin rəhbəri Dani Bos Sinqoma Kabaqambe, Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq İlyas Hüseynov və digərləri çıxışlarında Fransanın qəsbkar, vandal siyasətinə etirazlarını bildirib, bəşəriyyəti rəsmi Parisin cinayətlərinə qarşı birləşməyə çağırıblar. Əminliklə demək və ümid etmək olar ki, demokratik düşüncəli xalqlar müstəmləkə altında əzilən insanların harayına seyrçi qalmayacaqlar. Çünki yalnız ötən əsrdə Almaniyanın iki dəfə dünya müharibəsini törətməklə xalqlara yaşatdığı faciələrin ağır və acı nəticələrini hələ də insanlıq unutmayıb, əksər xalqlar hələ də müharibənin nəticələrindən əziyyət çəkməkdədirlər. Ona görə də, əminliklə o fikri vurğulamaq olar ki, dünya yeni bir bəşəri faciələri Fransanın vəhşi əməlləri və fəaliyyəti ilə yaşamamaq üçün Makron hakimiyyətinin cəzalandırılmasına və müstəmləkə siyasətinə son qoymasına nail olacaq.

**İLHAM ƏLİYEV**

# Ölkə rəhbəri tərəfindən verilən CİDDİ MESAJLAR

***Aşıq sənətinin görkəmli nümayəndəsi, söz ustadı Aşıq Ələsgərin abidəsinin açılışında ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin çıxışı, qətiyyətli mövqeyi Azərbaycan ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb. Azərbaycan Prezidenti abidənin açılışı zamanı öz çıxışında bir sıra ciddi bəyanatlar verib və həmin bəyanatların əlbəttə ki, ölkə rəhbəri tərəfindən verilən ciddi mesajlar olduğu qətiyyən diqqətdən yayına bilməz.***



## Azərbaycanlıların deportasiya edilməsi barədə qeyd olunması çox ciddi mesajlardır

Bildiyimiz kimi, Aşıq Ələsgər Qərbi Azərbaycanın Göyçə mahalında, indiki Ermənistan ərazisində yaşayıb və fəaliyyət göstərib. Onu da yaxşı bilirik ki, məhz Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlılar həmin ərazilərdən, həmin torpaqlardan, öz yurd-yuvalarından uzaq düşüblər. Dövlət başçımız öz çıxışında qeyd edib ki, məhz 1918-ci ildə erməni vandalları azərbaycanlılara divan tutduğu zaman Aşıq Ələsgər ömrünün son illərində, düz 97 yaşında Ermənistanın apardığı etnik təmizləməyə görə öz doğma yurdunu tərk etmək məcburiyyətində qalıb. Ölkə rəhbərinin öz çıxışında söylədikləri çox ciddi mesajlardır və şübhəsiz ki, ermənilər də, onlara havadarlıq edənlər də hansı məqamlara toxunulduğunun, nəyə eyham vurulduğunun fərqindədirlər. Fərqindədirlər ki, indiki Ermənistan ərazisi sayılan Göyçə mahalının əslində, tarixi Azərbaycan əraziləri olduğunu təsdiq edən məqamlardan biri də məhz aşıq sənətinin görkəmli nümayəndəsi, xalqımızın söz ustadı olan Aşıq Ələsgərin orada yaşaması, fəaliyyət göstərməsidir. Eyni zamanda, söz ustadımızın öz yurd-yuvasından uzaq düşməsinin məhz Ermənistanın etnik siyasət apardığının təsdiqi olduğu da təkzibedilməzdir. Bəli, bütün bunların ölkə rəhbəri tərəfindən xatırladılmasının nə dərəcədə ciddi mesajlar olduğunun da artıq fərqindədirlər. Daha açıq şəkildə desək, azərbaycanlıların öz yurd-yuvalarından deportasiya olunmasının baiskarlarının ermənilər olduğu barədə qeyd edilməsinin çox ciddi mesajlar olduğunu da başa düşürlər. Haylar da, onların havadarları da başa düşürlər ki, aşıq sənətimizin görkəmli nümayəndəsinin, söz ustadımız Aşıq Ələsgərin doğulduğu, yaşadığı, fəaliyyət göstərdiyi ərazilər, eləcə də onun deportasiyaya məruz qalması barədə Azərbaycan Prezidentinin qeyd etməsi, xatırlaması nə səbəbsiz deyil, nə də əbəs yerə ola bilməz.

## Ermənipərəst dövlətlərin İrəvana dəstəyi fonunda ciddi mesajlar verilməsi siyasi iradənin olması deməkdir

Hər dəfə də Ermənistanın apardığı işğalçılıq, etnik təmizləmə siyasətinə görə azərbaycanlıların deportasiyaya məruz qaldıqlarının növbəti dəfə məhz ölkə rəhbərimiz tərəfindən bildirilməsi siyasi iradənin olması deməkdir. Bir çox ermənipərəst dövlətlərin bütün mümkün dəstəyi fonunda Azərbaycan Prezidentinin müvafiq ciddi mesajlar səsləndirilməsi dövlət başçımızın qətiyyətindən xəbər verir. Ölkəmizin, Azərbaycanın qələbələrini, uğurlarını, rəsmi Bakının diplomatik nailiyyətlərini gözü götürməyənlər ciddi mesajların məhz onlara ünvanlandığını çox yaxşı anlayırlar. Dərk edirlər ki, əvvəla, orada azərbaycanlıların yaşadıqlarını, hətta dəfələrlə deportasiyaya məquz qaldıqlarını təsdiq edən faktlar, məqamlar var və əgər dövlət başçısı da bu məqamlar barədə xatırladırsa, diqqətə çatdırırsa, deməli, onlara elə ciddi şəkildə də mesajlar verilir.

Digər tərəfdən, təkcə Ermənistana, haylara deyil, bütün dünya ictimaiyyətinin diqqətinə çatdırılır ki, ermənilər vandallıq, vəhşilik, terrorçuluq, separatçılıq, etnik təmizləmə ilə azərbaycanlıları deportasiyaya məruz qoyublar, hansı ki, bütün bunlar beynəlxaq cinayətlərdir. Qətl, işgəncə, əsirlik təhdidi ilə azərbaycanlıları öz yurd yuvalarından didərgin salanların məhz ermənilər olduğu, bunu dövlət siyasəti olaraq qəbul edən dövlətin də Ermənistan olduğu barədə ölkə rəhbərimiz tərəfindən çox ciddi mesajlar verilməsini də başa düşmək çətin deyil. Hər halda, törətdikləri cinayət əməllərinə görə, beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymamalarına, onları kobud şəkildə pozduqlarına görə cavab verməli olacaqlarını da başa düşmüş olurlar. Çünki verilən ciddi mesajlar onların bunu başa düşmələri üçün yetərincədir və kifayət də edir.

## Ölkə rəhbərinin dedikləri hər dəfə olduğu kimi, yenə də əminlik yaradır və qərbi azərbaycanlıların da qayıdışına əminik

Doğrudur, xalqımız öz ərazisində sığınacaq verdiyi ermənilərin xaincəsinə hücumuna dəfələrlə məruz qalıb. Haylar bizə qarşı dəflərlə namərdcəsinə davrandıqları da tarixi faktlardır. Dəfələrlə azərbaycanlıların öz yurd-yuvalarından didərgin düşmələrinin səbəbkarının da ermənilər olduğu bəllidir və ölkə rəhbərimiz də yüksək diplomatik ustalıqla bu barədə öz çıxışı zmanı mesajlar verdi. Məsələ burasındadır ki, dövlət başçımız Aşıq Ələsgərin öz ömrünün sonunda doğulduğu, yaşadığı Ağkilsə kəndinə qayıtmasını da əbəs yerə xatırlatmayıb və əslində, bu xatırlatma ermənilər üçün də, xalqımızı gözü götürməyənlər üçün də ən kəskin və ən ciddi mesaj hesab olunur. Əgər Aşıq Ələsgər öz yurduna qayıdıbsa, əgər ötən əsrin sonlarında ölkəmizin Ermənistan tərəfindən işğal olunan ərazilərindən məcburi köçkün düşən həmvətənlərimiz də qayıtmaqdadırsa və Böyük Qayıdış uğurla davam edirsə, deməli, Qərbi Azərbaycan torpaqlarına da azərbaycanlıların qayıdacağı təkzib edilə bilməz. Belə bir məntiqi yanaşma hər dəfə olduğu kimi, yenə də əminlik yaradır.

“Biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Qarabağdan, Şərqi Zəngəzurdan olan, bu torpaqları görməyən soydaşlarımız qayıdış gününü, “Böyük Qayıdış” proqramının həyata keçirilməsini böyük həvəs və səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra olunur. O torpaqlarda heç vaxt yaşamayan, ancaq onlara qayıtmaq arzusu ilə yaşayan qarabağlılar bu gün Qarabağa qayıdırlar. Əminəm ki, Qərbi Azərbaycana qayıdarkən də eyni mənzərəni görəcəyik”, deyə Azərbaycan Prezidentinin bəyan etməsi ölkə ictimaiyyətində daha böyük əminlik yaradır. Çünki dövlət başçımızın hər dəfə bəyan etdiklərini reallaşdırdığının şahidi olmuşuq və bundan sonra da əmin olmaqda bu baxımdan haqlıyıq. Cənab Prezidentin Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızı misal çəkməsi də bu baxımdan təsadüfi sayıla bilməz. Təbii ki, bütün bunların fonunda anti-azərbaycan isterikasının artması fonunda Azərbaycan Prezidentinin Qərbi Azərbaycana qayıdacağımızla bağlı qətiyyətli çıxışı dövlətçiliyimizin, ədalətsiz dünyada ədalətə qovuşmaq üçün sarsılmaz iradəmizin manifesti olaraq qəbul edilir. Ona görə də məhz ölkə rəhbərinin dedikləri hər dəfə olduğu kimi, yenə də əminlik yaradır və biz qərbi azərbaycanlıların da qayıdışına əminik.

***İnam Hacıyev***

# Dəbin diktəsi və ya moda manqurtluğu



Moda deyəndə hamımızın ağlına bir şey gəlir - trendlər, çeşidlər, saysız-hesabsız geyimlər, hər ay yeni versiyası çıxan telefonlar, aramsız dəyişən ev dizaynı, texnoloji alətlər və daha nələr, nələr. Moda bir çoxunun həyat tərzi, bir çoxunun ayaq uydurmaq məcburiyyətində qaldığı vəziyyətdir. Hər il, hər ay, hər həftə dəyişən moda insanı özünə əsir edib desək, yanılmarıq. Əslində fərqində deyilik, amma moda bizi idarə edir. Xüsusilə sosial şəbəkələrin təsiri ilə bu idarəetmə təsirləri günü-gündən artır. İnsanlar istədikləri kimi geyinmək yerinə dəbin diqtəsi ilə geyinməyi üstün tutur, özünü buna məcbur hesab edir. İnsanlara moda, dəb proqramları, instaqram fenomenlərinin vasitəsi ilə nə geyinməyi, necə geyinməyi təlqin edirlər. Beləcə, insan zamanla öz istəklərini, iradəsini itirir, özünü yalnız modanın ixtiyarına verir, nə təlqin edilirsə təkrarlayır, nə satılırsa alır, nə istehlak edəcəyini özü yox, moda dünyası qərarlaşdırır. Dünənə qədər geyinmək istəmədiyini bu gün geyinirsə, deməli, idarə edilmək onun xoşuna gəlir.

Təbii ki, dəb dediyimiz sərhədsiz anlayış yalnız geyimlə məhdudlaşmır. Bizə dəb, moda adı altında ehtiyacımız olmayan hər şeyi sata bilirlər, sevmədimiz musiqini dinlədə bilirlər, bəyənmədiyimiz yeməyi yedirdə bilirlər. Elə bilirsiniz sosial şəbəkə trendləri boşuna gündəmə gəlir? İçinə pendir doldurulmuş bibər turşusunu yeməyən qaldı? Yaxud, Dubay şokoladını dadmayan kimsə varmı? Bəs yumurtadan şokoladlı pudinq düzəltmək fikri necə? Güman ki, bunların hamısını siz də etmisiniz, ya da etmək istəmisiniz, çünki sizə bunu təlqin ediblər. Trend, moda, dəb budur – zorla istehlakçı yaratmaq, ona istədiyini etdirmək, aldırmaq.

Moda, dəb adı altında tarix boyu qadınlar özünə zülüm edib. Ayaqlarını qəlibə salıb böyüməyini dayandıranlar da bunu moda üçün edib, belini korsetlə sıxıb orqanlarına zərər verən də.

Keçən əsrin əvvəllərində Bakıda qadınlar saç dəbi uğruna zərər görə, zərər verə bilirdi. Qadınlar saçlarını yığanda topuz qabarıq olsun deyə saçın altına banka qoyurdu. O dövrün ictimai nəqliyyatı olan konkada bashabas olanda çox qadının başında banka sınıb, yaralanıb, hətta qanaxmadan ölən də olub. Dövrün kişiləri konkada uzun saçlı pariki olan və şlyapalı qadınlardan da uzaq durmağa çalışırmış. Çünki o şlyapa parikə böyük və ucu kəskin iti olan sancaqla bərkidilirdi. Bu sancaq çox kişinin üz-gözünü yaralayır, gözünə girirdi. Bu haqda dövrün bədii ədəbiyyatında, mətbu orqanlarında da çox yazılırdı.





Həmin dövrdə dünya modasında daş kimi bərk yaxalığı olan kişi köynəkləri də dəb idi, yaxalıq o qədər bərk olurdu ki nəfəs almağı belə çətinləşdirirdi, bəzən o köynəkdə yuxuya getmək ölümə də səbəb olurdu.

Dəb bütün dövrlərdə cəlbedici olub. Elə indi də dəbə görə hər şeyini verməyə hazır olan, bütün dəyərlərindən keçməyə razı olan insanlar var. Başqalarının yaşadığı həyatı yaşamaq arzusunda olan, geyindiyini geyinmək istəyən insanları da tarix yetişdirir. Sosial şəbəkə ulduzlarının, fenomenlərin getdiyi yerə getmək istəyir insanlar, onun yediyindən yemək, geydiyindən geymək istəyir. İnsanlar öz həyatını yaşamaqdan imtina edib başqasının həyatını yaşamaq istəyir. Qarderobundakı geyimlər gözündən düşür, dünənədək bəyəndiyi sevimli köynəyi bu gün gözünə iyrənc görünür, fenomenlərin reklam etdiyi geyimlərə həsrətlə baxır.

60-cı illərdə babalarımızın geyindiyi enli çiyinli, düz biçimli pencəklər indi necə dəb oldu, xatırlayın. Yöndəmsiz biçilmiş, geyinənin əyninə ən az 3-4 ölçü böyük olan bu pencəklərdən ölkədə geyinməyən qız-qadın qalmadı. İnsan əyninə yaraşanı geyinməkdən imtina edib içində üzdüyü, əynindən tökülüb itən, çox yox, 2-3 il əvvəl qətiyyətlə geyməkdən imtina etdiyi pencəyi indi dəbdir deyə niyə geyinsin ki? Dəb olmasa idi eyni geyimi qarderobuna daxil edərdimi? Əlbəttə ki, yox. Dəb üçün öz ideallarından, standartlarından, kriteriyalarından imtina edir. Xatırlayın, ötən il islaq görüntülü cinslər necə dəb olmuşdu? Şalvarın ağ hissəsi islanmış effekti ilə istehsal edilmişdi, sanki geyinən insan altını isladıb. Normaldır bu dəb? Amma normallaşdırmağa çalışdılar. Beləcə, insan özü də fərqində olmadan dəbin köləsi halına düşür.

Estetik əməliyyatları düşünün, onu da dəblə bu qədər kütləviləşdirdilər. Qətiyyən əməliyyata ehtiyacı olmayan insanları diqtə ilə dəyişməyə məcbur etdilər. Normal burunlar kəsildi, allahın qələmlə xüsusi çəkdiyi o qonçə dodaqlar şar kimi üfürüldü, o al yanaqlar rəndələndi, yumru çənələr itiləndi, gözlər dartılıb gicgaha tikildi. Son günlərin ən çox müzakirə edilən göz rəngi dəyişdirilmə əməliyyatlarını düşünün, insan simasında qalıcı olaraq bircə göz rəngləri dəyişə bilmirdi, indi onun da çarəsinə baxırlar. Hamısı ilin dəbi, dövrün trendi olduğu üçün edilir. Diqqət edin, bu il yolka kimi dik duran qaşlar necə dəb oldu? Qaşları xüsusi sabitləyici ilə dikinə darayıb tükləri nümayişə qaldıranlar da bunu moda üçün edir. Halbuki, bu dəb yarananadək qaş tüklərinin öz nizamından çıxan hissələri qayçı ilə kəsilirdi ki, səliqəli görünüş pozulmasın.

Bir də var texnoloji dəb. Bizi özünə əsir edən ən gəlirli dəb tələsi elə texnoloji yeniliklərdir. Texnologiya o qədər sürətlə inkişaf edir ki, bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Ən son modelini aldığımız telefonun menyusunu öyrənməmiş yeni versiyası satışa çıxarılır, "dəbdir" deyib onu almağa fokuslanırıq. Məşhur markanın telefonunu almağa, onu əlimizdə tutmağa özümüzü o qədər köklənmişik ki, vəhşicəsinə işləyib alın tərimizi 2 il ona ödəməyə hazırıq. Sosial şəbəkələrdə "iPhone 16"nın satışları olan mağazaların önündəki növbələrlə bağlı paylaşımları hamı görür. Əlindəki versiyadan demək olar ki fərqlənməyən yeni versiyaya ödəyəcəyi məbləği əziyyətlə qazananlar da az deyil onların arasında. Sizcə, bu normal haldır? 2 ay əvvəl son versiyasını aldığımız televizorumuz yeni versiyası çıxan kimi gözümüzdən düşür, elə televizor qiymətinə aldığımız qulaqlığımız da 2-3 ay sonra bizə köhnə, yararsız gəlir, yeni versiyanı almaq üçün dəridən-qabıqdan çıxırıq. Bu texnoloji yarışın, dəblə ayaqlaşmağın fonunda həyatımız, sağlamlığımız əlimizdən gedir, evdən işə, işdən evə gedib gələn, əlində son model telefonu, qulağında bahalı qulaqlığı olan texnokölədən başqa bir şey olmuruq. Beləcə, dəb bizi özünə kölə edir, bizi idarə edir. Bu bir növ manqurtluqdur. Manqurtluğun nə olduğunu da hamı bilir.

***Lalə Mehralı***

# "İşsizlik problemi ilə bağlı sual eşidəndə ürəyim ağrıyır"

***"İşsizlik probleminin nə zaman həll olunacağı ilə bağlı sual eşidəndə ürəyim ağrıyır". Bu sözləri SİA-ya açıqlamasında şair, publisist, sosioloq Əhməd Qaşəmoğlu deyib. O bildirib ki, çünki 1994-cü ildə işsizlik probleminin həll olunması ilə bağlı böyük bir təkliflər paketi hazırlamışdım: "Bu gün də təkliflər paketi öz qüvvəsindədir.***




Amma o vaxt mən səlahiyyətli, mühüm bir elmi mərkəzin rəhbəri olaraq bunu ortaya qoyanda ətrafdan o qədər üstümə gəldilər ki, gözümü açmağa imkan vermədilər. Sonra da mərkəzimi ləğv etdilər. Bəzi məmurlar, öz mənafeyini güdən adamlar bunu etdilər. Amma yenə də 1994-cü ildə təklif etdiyim proqramı istifadə etsələr, işsizlik problemini həll etmək olar.

Kəndlərdə xeyli torpaqlarımız var. Bu torpaqlarımızın bəzən 100, 50 hektarını, çəpərləyib özününküləşdirənlər var. Belə bir kvota müəyyənləşdirə bilərik ki, kimin nə qədər torpağı varsa, ona uyğun olaraq iş yerləri də hazırlamağa borcludur. İş yeri hazırlaya bilmirlərsə, bu torpağı zəhmət çəkib dövlətə versinlər. Onun üçün də çalışmaq lazımdır ki, orada iş yerləri açılsın, təsərrüfat yaradılsın. Edə bilmirlərsə, torpağı təhvil versinlər.

İkincisi, biz kənd yerlərində insanlara çox aşağı, simvolik faizlə kredit verə bilərik. Bu krediti verəndə də müqavilə bağlaya bilərik ki, bunun əvəzində hər hansı kənd təsərrüfatı məhsulunu istehsal etsin. Bununla planlaşdırırıq ki, hər rayonun özünə uyğun olaraq məhsulları olsun. Geri qaytarmayanda cəzası verilsin. O zaman hər bir rayonda xeyli məhsul istehsal edən xeyli fabrik, zavod tikə bilərik. Konserv zavodları dünya standartlarına uyğun məhsul istehsal edər. Biz tomat pastasından tutmuş, mürəbbələr daxil olmaqla xeyli müxtəlif məhsul istehsal edə bilərik. Azərbaycanda xeyli eqzotik mürəbbələr ortaya qoymaq olar. Məsələn, qarpız mürəbbəsi, balqabaq mürəbbəsi, badımcan mürəbbəsi, pomidor mürəbbəsi, qoz, qovun mürəbbəsi yüksək standartlara uyğun olanda Avropa bazarı onlar üçün açıqdır. Ölkədə son zamanlar normal turşu da görmürük".

"Azərbaycan torpağı elədir ki, xeyli məhsul var. Biz əgər elə şərait yaratsaq ki, kənddə camaat başını aşağı salıb kənd təsərrüfatı məhsulu istehsal etsin, başqa qayğılarla məşğul olmasın, o zaman ölkədə tamam başqa mənzərə yaranar. Hələ 1992-ci ildə müsahibə vermişəm ki, biz elə şərait yaratmalıyıq ki, kəndçi məhsul istehsal etsin. Onun məhsulunu alan şəbəkə olmalıdır. Kəndçi o qayğını yaşamamalıdır ki, traktoru, gübrəsi yoxdur, kredit almaq problemi var. Bunların hamısına kömək etmək lazımdır. Çünki 2-3% kredit ilə dövlət xeyli qazanır. Azərbaycanda kənd təsərrüfatı məhsulu o qədər ola bilər ki, dövlət onun ixracı ilə bağlı daha çox pul qazanar. Buradan banklara da müəyyən faiz verilə bilər. Bunlarla bağlı böyük bir paketi 1992-ci ildə hazırlayıb, 1994-cü ildə təqdim etdim. Üzərindən 30 ildən çox keçib. Mən dediyim işlər görülmür. Sosioloqam, bu işləri təhlil edən adamam. Bu işləri qaydası ilə görməyəndən sonra nə vaxt həll olunacağını demək olmaz. Həll etmək üçün qaydası ilə görmək lazımdır. Maraqlanan təşkilat varsa, gedim orada təqdimat keçim. Yoxsulluq problemini həll etməyin üsulunu 1992-ci ildən deyirəm" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***





***Ötən əsrlərdən başlayaraq tarixi Azərbaycan torpaqlarına ermənilərin başqa ölkələrdən köçürülməsi bir sıra ermənipərəst dövlətlərin dəstəyi və təşkilatçılığı ilə həyata keçirilmişdir. Həmin zamanlardan orada yaşayan soydaşlarımız sıxışdırılmış, təzyiqlərə məruz qalmış, ən nəhayət, yer-yurdları tərk etməyə məcbur olmuşlar. Bu proses bir neçə dəfə baş vermiş, soydaşlarımız axırıncı dəfə 1988-ci ildə kütləvi deportasiya olunmuşlar. Bir sözlə, indiki Ermənistan adlanan qədim Azərbaycan torpağında bir nəfər də olsun azərbaycanlı qalmamışdır.***

# Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir




Bu illər ərzində ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da tarixi irsimizi silmək məqsədilə bütün dini və mədəni abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar. Tarixə nəzər salsaq görərik ki, əsl həqiqət heç vaxt itmir, gec-tez aşkara çıxır. Ermənilərin apardığı bu mənfur siyasət də bu səbəbdən uğursuz olub. Çünki tarixi həqiqəti sübut edəcək mənbələrimiz var. Ötən əsrin əvvəllərinə təsadüf edən xəritələr bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır. Şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir. Biz tarixi mənbələrə istinadla sübut edirik ki, indiki Ermənistan ərazisində əsrlər boyu Azərbaycan xalqı yaşayıb.

Məlumdur ki, keçmişdə Azərbaycanın şərq vilayətləri ilə Anadolunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üzərində yerləşən, hazırda isə şimaldan Gürcüstanla, şərqdən Azərbaycanla, qərbdən Türkiyə ilə, cənubdan isə İranla həmsərhəd olan bu ərazilər indi Ermənistan kimi tanınsa da, vaxtilə qədim Oğuz yurdu, tarixi Azərbaycan torpaqları olub. Bu, inkaredilməz faktdır. Bunu həmin ərazidəki saysız-hesabsız maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, qəbirüstü abidələr, istehkam qala və saray qalıqları, karvansaralar, körpülər, Göyçə gölü ətrafında tapılan heykəllər, məscidlər də təsdiqləyir. Ermənilərin tarixi Azərbaycan torpaqlarında etnik tərkibin dəyişdirilməsi ilə bağlı siyasətinə gəlincə onu deyə bilərik ki, bu hal məqsədyönlü şəkildə mütəmadi olaraq həyata keçirilib. XV əsrin ortalarında Qaraqoyunlu hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzinin Kilikiyadan, erməni mənbələrində qeyd edildiyi kimi, “Azərbaycan ölkəsində olan Üçkilsəyə” (Eçmiədzinə) köçürülməsinə icazə verib. Tədricən Üçkilsə və onun ətrafında yerli azərbaycanlı əyanlara məxsus torpaqlarda Kilikiyadan köçüb gələn erməni ailələri məskunlaşıb və bu proses sonrakı yüzilliklərdə daha da genişlənib. Ermənilər tərəfindən 1639-cu ildə Üçkilsə məbədinin Alban memarlıq üslubuna uyğun mehrabı sökülüb, yenidən inşa edilib. Mədəniyyətimizə qarşı törədilən bu cür vandalizm aktları sonrakı dövrlərdə də baş verib. I Pyotrun hakimiyyəti illərində də ermənilər Rusiya İmperiyası üçün etnik dayaq yaradılması məqsədilə planlı şəkildə Qərbi Azərbaycana köçürülüb. Bu siyasət daha sonra müxtəlif dövrlərdə təkrarlanıb və ermənilər vaxtaşırı bu ərazilərdə məskunlaşdırılıb. Çar Rusiyası İrəvan xanlığını özünə birləşdirdikdən sonra bu bölgədə möhkəmlənmək məqsədilə yerli müsəlman-türk əhalini sıxışdırmağa və Azərbaycan ərazisinə erməniləri köçürməyə başlayıb. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqları ləğv edildikdən sonra burada qondarma “erməni vilayəti” yaradılıb. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra ermənilərin Şimali Azərbaycanın digər bölgələri ilə yanaşı, keçmiş İrəvan xanlığının ərazilərinə köçürülməsi kütləvi xarakter alıb. Ardınca sovet hakimiyyəti zamanı da ermənipərəst siyasətin nəticəsində Qərbi Azərbaycan torpaqlarına qeyri-qanuni erməni köçləri davam etdirilib. Belə ki, Suriyadan və Livandan xeyli sayda erməni ailələri burada yerləşdirilib. Qərbi Azərbaycan torpaqlarında böyük güclərin dəstəyi ilə dövlət quran ermənilər utanmadan, “Yersiz gəldi - yerli, qaç”, “Dağdan gəlib bağdakını qovmaq” frazeoloji birləşmələrinə uyğun etnik təmizləmə siyasəti də apardılar. Azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi deportasiyasına düzgün və obyektiv hüquqi-siyasi qiymət Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 1997-ci il 18 dekabr tarixli Fərmanı böyük elmi-siyasi, tarixi əhəmiyyətə malik sənəddir. Burada haqlı olaraq qeyd edilir ki, keçmiş SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olub. Təkcə bu cinayət aktlarının həyata keçirilməsi nəticəsində 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan ərazisindən kütləvi şəkildə və zorakılıqla sürgün edilib.

2020-ci ildə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbə tariximizə ən böyük qəhrəmanlıq salnaməsi kimi həkk olundu. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaratdı. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalan Qarabağ və Şərqi Zəngəzur azad olundu. Nəticədə müasir müstəqil Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Bundan sonra xalqımızın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycanın həqiqi sahiblərinin ata-baba yurdlarına geri qaytarılması, onların hüquqlarının bərpasıdır. Bu məsələ növbəti tarix, dövr üçün ən mühüm taleyüklü bir məsələ olaraq artıq ölkəmizin gündəliyinə daxil edilib. 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə Prezident İlham Əliyev tarixi Qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən birinin məhz Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsi olduğunu vurğulayaraq deyib: “Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar”.

Xatırladaq ki, ötən il yanvarın 26-da Qərbi Azərbaycan İcması tərəfindən indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmalarının təmin olunması barədə Qayıdış Konsepsiyası qəbul edildi. Bu Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Sevindirici haldır ki, Prezident İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılıb. Dövlətimizin başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən dəfələrlə bəyan edib və edir.

Bu gün Ermənistanın havadarları etnik ermənilərin qayıdış hüququndan danışanda Qərbi Azərbaycandan olan soydaşlarımızın vəziyyətini gözardı etməyə çalışırlar. Amma Prezident İlham Əliyevin də söylədiyi kimi, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi azərbaycanlılara da şamil edilməlidir. Sentyabrın 30-da Prezident İlham Əliyev böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında çıxışı zamanı bir daha Qərbi Azərbaycandan olan soydaşlarımızın öz yurd-yuvasına qayıdış hüququnu xatırladıb. Dövlətimizin başçısı Qarabağa, Şərqi Zəngəzura qayıdış hissi yaşayan soydaşlarımız kimi, Qərbi Azərbaycandan olan həmvətənlərimizin də bu sevinci yaşayacağına inandığını vurğulayaraq deyib: “Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanıraq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik”.

***Sevinc Azadi***

# Ey hörmətli müəllim



***Deyilənə görə, 20 mindən artıq peşə və sənət növü var. Lakin bütün bu peşələrin sahiblərini bir peşə sahibi yetişdirir. Bu, MÜƏLLİMdir! Əslində, yazı qaydalarını pozmaq bahasına olsa belə, bu sözü böyük hərflə yazmaq lazımdır.***

Harada, nə üzrə və hansı qaydada tədris verməsindən asılı olmayaraq MÜƏLLİM özündən daha yüksək biliyə mailk olan, cəmiyyətə töhfələr bəxş edəcək ağıllı, mədəni və ziyalı insanlar yetişdirmək istəyi ilə çalışır. Məhz buna görə MÜƏLLİM adı şərəfli sayılır və uca tutulur.

Bəşəriyyət tarixi elmi-texniki tərəqqiyə, mədəni-ictimai inkişafa görə ustadlara, müəllimlərə borcludur. Qədim mənbələrdə ilk biliyin insanlara İlahidən verildiyini və bunu hamıya çatdırmaq üçün ən təmiz qəlbli insanların seçildiyi qeyd olunur. İnsanın ilk müəllimləri də Tanrının seçdiyi uca insanlar- İlahi bilik sahibləri olub.

Yazının hələ olmadığı dövrlərində biliklər ustad-şagird ardıcıllığı ilə nəsildən-nəslə ötürülüb və bu günümüzədək gəlib çıxıb. Hansı xalqın müəllimləri aydın fikirli, elmli, dünyagörüşlü olubsa, o xalq daha çox inkişaf edib.

Ta qədimdən Azərbaycan xalqı ustada-müəllimə böyük hörmət bəsləyib, onları valideyn qədər əziz tutub. El arasında müəllimin ən böyük hörmət və izzət sahibi olduğunu göstərən yüzlərlə atalar sözü, deyimlər, aforizmlər, rəvayətlər və s. şifahi və yazılı folklor nümunələri var.

Azərbaycanda həmişə ən hörmətli şəxs sayılan müəllimin sözü ağsaqqal sözü kimi qəbul olunub. Hətta, ən qüdrətli hökmdarlar belə müəllimlərinin qarşısında baş əyiblər, onları özlərindən yuxarı başda əyləşdiriblər. Qədimlərdə valideyn uşağını müəllimə verəndə "əti sənin, sümüyü mənim" deyə tapşırardı. Böyük tarixi şəxsiyyətlərimizin və sənətkarlarımızın öz ustadlarına nə qədər böyük sevgiylə yanaşdığını və onların yolunu necə böyük əzmlə davam etdirdiyini xatırlamaq burada yerinə düşərdi. Teymurləngin məzarı önündə bunu daha aydın anlamaq olur. Qüdrətli sərkərdə öz qəbrinin müəlliminin məzarının ayaq ucunda qoyulmasını vəsiyyət etmişdi və onun bu müdrükliyi hələ də dünyanı heyran qoymaqdadır.

Azərbaycan xalqı 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində müəllimlərə çox böyük ehtiyac duyurdu. Böyük mütəfəkkirlər Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mirzə Fətəli Axundov, Əbdürrəhim Haqverdiyev və digərləri xalqın cəhalətdən qurtulması, mövhumata yox, elmə doğru getməsi üçün mübarizə aparırdılar. Tarixi həqiqətdir ki, xalqımız məhz belə aparıcı ziyalıların, mütəfəkkirlərin çağırdığı yolla gedəndən sonra inkişaf etdi və qısa zamanda dünya xalqları arasında öz layiqli yerini tutdu.

Ötən əsrin ortalarında Azərbaycan əhalinin təhsilə cəlb olunma səviyyəsinə, əhalinin hər 10 min nəferinə düşən elmi işçi, tələbə və müəllim sayına görə ən inkişaf etmiş ölkələri belə qabaqlayaraq dünyada ilk yerlərdən birini tuturdu.

Keçən əsrin ortalarında respublikada elm-təhsil ocaqlarının, kitabxanaların tikintisi işi böyük vüsət aldı, azərbaycanlı tələbələrin SSRİ-nin və dünyanın inkişaf etmiş digər ölkələrinin nüfuzlu ali təhsil ocaqlarında təhsil alması işi genişləndi.

20-ci illərədək bir nəfər də olsun akademiki, professoru, elmlər doktoru olmayan, əhalisinin 99%-nin oxuyub-yazma bilmədiyi, cəmi 100 nəfər azərbaycanlı müəllimi olan, 800 min uşağının məktəbin nə olduğunu bilmədiyi respublika 30 il sonra əhalisi 100% savadlanmış, minlərlə məktəbi, onlarla universiteti, elmlər akademiyası, elmi-tədqiqat institutları, hətta kosmik tədqiqatlar mərkəzi olan intellektuallar ölkəsinə çevrildi.

Son dövrlərdə yeni təhsil sistemlərinin tətbiqi təhsildə müəyyən problemlər yaratsa da, yenə də xalqımız savadlılıq dərəcəsinə görə dünya xalqlarının ön sıralarında dayanır. Ümumiyyətlə, Azərbaycan xalqı tarixin bütün dövrlərində maarifpərvər və ziyalı bir xalq olduğunu sübut edib. Burada ən böyük rolu müəllimlər oynayıblar. O müəllimlər ki, onlar elm və təhsil yolunda, xalqın gələcəyi uğrunda sözün həqiqi mənasında şam kimi yanıblar. Xalqımız da onların hörmətini saxlayıb, adını həmişə uca tutub. Bütün bunlar xalqımızın elmə, təhsilə nə qədər böyük önəm verdiyinin göstəricisidir.

MÜƏLLİM ucalığı haqda saysız poeziya və nəsr nümunələri, bədii və elmi əsərlər yazılıb. "Bizim Cəbiş müəllim" filmindəki MÜƏLLİM obrazı isə Azərbaycan müəllimi üçün etalondur. Bu obraz həm də bütün cəmiyyət üçün bir insanlıq nümunəsidir- əsl İNSAN və əsl MÜƏLLİM nümunəsi...

5 oktyabr peşə bayramı münasibətilə bütün müəllimləri təbrik edirəm. Nə yaxşı ki varsınız. Bayramınız mübarək!

***Elçin Bayramlı***

# "Sevgi və qayğı şagirdlərin müəllimlərinə olan etimadını artırır"





***"Müəllimlərin uşaqlara ana qayğısı ilə yanaşması onların təlim-tərbiyə prosesində mühüm rol oynasa da, bəzi hallarda müəllim-şagird münasibətlərini pozmaq potensialına da malikdir.***



*EKSPERT MÜNASİBƏT BİLDİRDİ*

Səmimiyyət və qayğı tədris prosesinin vacib elementləri olsa da, bu münasibətlərdə hədd və sərhədlər doğru şəkildə müəyyən olunmadıqda problemlər ortaya çıxa bilər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Kamran Əsədov sözlərinə belə davam edib: "Bir tərəfdən, müəllimlərin uşaqlara ana qayğısı ilə yanaşması şagirdlərin psixoloji rifahını artırır. Uşaqlar, xüsusən də ailədə və ya sosial mühitdə problemlərlə üzləşənlər, məktəbdə müəllimlərindən qayğı və dəstək aldıqda özlərini təhlükəsiz hiss edirlər. Bu münasibət, şagirdlərin motivasiyasını artırır, onların akademik və şəxsi inkişafına müsbət təsir edir. Sevgi və qayğı şagirdlərin müəllimlərinə olan etimadını artırır, bu isə tədris prosesində uğurların əldə olunmasına şərait yaradır.

Digər tərəfdən, müəllim-şagird münasibətlərində qayğı və səmimiyyətin həddi pozulduqda, bəzi mənfi təsirlər meydana çıxa bilər. Əgər müəllim şagirdlərlə çox yaxın və şəxsi münasibətlər qurursa, bu, professional münasibətlərin pozulmasına səbəb ola bilər. Müəllimlər bir tərəfdən şagirdləri dəstəkləyib onlara qayğı göstərməli olsalar da, digər tərəfdən tədris və tərbiyə prosesində müəyyən sərhədlər saxlamalıdırlar. Şagirdlərin müəllimlərinə həddən artıq yaxınlaşmaları, nizam-intizamın zəifləməsinə və müəllim otoritetinin sarsılmasına səbəb ola bilər. Müəllimin professional mövqeyi itirildikdə, şagirdlər onun verdiyi təlimatları ciddi qəbul etməyə bilər və dərs zamanı intizamı qorumaq çətinləşər.

Müəllim-şagird münasibətlərində səmimilik, qarşılıqlı hörmət və qayğı vacib olsa da, bu münasibətlərin strukturunu dəqiq şəkildə qorumaq lazımdır. Müəllimlər bir valideyn rolunu deyil, peşəkar tərbiyəçi və tədrisçi rolunu daşıyırlar. Bu çərçivədə, qayğı göstərərkən həm də sərhədlər yaratmaq və balansı qorumaq vacibdir. Şagirdlərə olan sevgi və dəstək onlara məsuliyyət hissi, müstəqillik və özlərini ifadə etmə bacarıqları aşılamaqla yanaşı, onların həyatında düzgün istiqamət verməlidir.

Başqa ölkələrin təcrübəsinə baxsaq, müəllim-şagird münasibətlərində səmimiyyət və qayğının necə balanslı şəkildə tətbiq olunduğunu görürük. Finlandiya təhsil sistemi buna yaxşı bir nümunədir. Finlandiyada müəllimlər uşaqlara qayğı və dəstək göstərsələr də, tədris zamanı yüksək səviyyədə professional sərhədlərə diqqət yetirirlər. Bu da uşaqlarda müəllimlərinə qarşı həm hörmətin, həm də yaxınlıq hissinin yaranmasına səbəb olur. Müəllimlər səmimi olsalar da, dərs zamanı ciddi və məsuliyyətli yanaşmanı qoruyurlar, bu isə tədris keyfiyyətini yüksək səviyyədə saxlayır. Səmimiyyət və qayğının tədris prosesində əhəmiyyətini nəzərə alaraq, müəllimlər uşaqlara yanaşarkən onların fərdi ehtiyaclarını və psixoloji vəziyyətlərini nəzərə almalıdırlar. Eyni zamanda, professional sərhədlərin müəyyən olunması şagird-müəllim münasibətlərinin uzunmüddətli perspektivdə uğurlu olmasını təmin edir. Nəticə olaraq, səmimilik və qayğı tədris prosesinin tərkib hissəsi olmalı, lakin bu münasibətlərdə həddin qorunmasına xüsusi diqqət yetirilməlidir".

***Ayşən Vəli***

# Baqratın süqutu və...

*Arxiyepiskop Baqrat Qalstanyan İrəvanın mərkəzində etiraz aksiyalarını bərpa edib. İlk aksiya oktyabrın 2-də Respublika meydanında, ikinci aksiya isə oktyabrın 6-da orada keçirilməlidir. Dövlət İctimai telekanalının efirində o, Ermənistanın gələcəyindən narahat olan hər kəsi öz hərəkətlərinə qoşulmağa çağırıb. Əks halda, Qarabağda baş verənlərin Ermənistanda da təkrarlanacağına əmin olduğunu deyib.*










## Amma arxiyepiskop canlı yayımda Paşinyanı devirəcəyini vəd edib

“Mən geniş ictimaiyyətə müraciət edirəm. Mən canımı bu yolda qurban verirəm. Bizim addımlarımız Paşinyan hakimiyyətini dərhal aradan götürmək planlarımıza doğru aparır. Mən sahibkarlara müraciət edirəm, siz bu rejimə qulluq edirsiniz. Sənin susmağa haqqın yoxdur, çünki vətənin əlindən çıxacaq. Bir çoxlarınız üçün vətən sizin bəxtinizdir, ancaq onu itirəcəksiniz. Qarabağda nə baş verdiyini görürsən? Eyni şey Ermənistanda da olacaq. Və o gün uzaqda deyil”, - arxiyepiskop bildirib. Qalstanyanın fikrincə, ermənilərin “ağıllarına gəlmələrinin” və onları necə çətin gələcək gözlədiyini görmələrinin vaxtı çatıb. Eyni zamanda o, baş nazir Nikol Paşinyanın Azərbaycanla “saxta sülh” hazırladığını və pula pərəstiş etdiyini vurğulayıb.

Bu arada belə bir təəssürat yaranır ki, arxiyepiskop özü nə istədiyinə və başqalarını nə etməyə çağırdığına tam əmin deyil. O cümlədən, veriliş zamanı teleaparıcı ona Ermənistanın Rusiya ilə münasibətləri və keçmiş prezidentlərlə əlaqələri barədə suallar verib. Qalstanyan buna əslində cavab verməyib, jurnalist eyni zamanda həmsöhbətinin ədəbsiz davranışının milli barışıq söhbəti ilə necə uzlaşdığını soruşub və o, deyib: “Polis rəisinə demədim ki, onu öldürəcəm, dedim, onu yerdə əzişdirəcəm. O özünü sonuncu xuliqan kimi apardı və cavabını da aldı. Düşüncə gücü ilə tapdalayacağam, ruhumla tapdalayacağam, hamını tapdalayacağam...”. “Sən cinayətkar deyilsən, bu nə deməkdir?” – deyə aparıcının çaşqınlıq içində verdiyi suala, ”Xuliqanın xuliqanlıq etmək hüququ var” deyə Qalstanyan yekunlaşdırıb.

Demək olar ki, eyni hərəkəti yazda və yazın birinci yarısında müşahidə etmək olardı. Arxiyepiskop ədalət və daha yaxşı bir dünya uğrunda mübarizədən gözəl danışırdı, lakin konkretliyə gələn kimi o, bu hisslərini tamam itirdi. Üstəlik, ona nə qədər çox sual verilirsə, ritorikası bir o qədər aqressivləşir. Onun üçün Paşinyanı devirmək üçün kifayət qədər etiraz iştirakçıları yox idi. Nəticədə Qalstanyan payıza qədər fasilə vermək qərarına gəlmişdi. Onun bu mövsüm ilk mitinqinə təxminən 2 min adam gəlib. Xatırlayaq ki, mayda onun ətrafına on minlərlə insan toplaşmışdı və dünya mediası dövlət çevrilişi ehtimalını ciddi şəkildə müzakirə edirdi. Göründüyü kimi, ona marağı birtəhər bərpa etmək lazım olduğunu anlayan Qalstanyan xalqa müraciət etmək üçün ona efir vaxtının verilməsini tələb edərək, İctimai Televiziyaya yürüş təşkil edib. Cavab olaraq jurnalistlər keşişdən çoxdan müsahibə almaq istədiklərini açıqlayıblar, lakin o, bundan imtina edib. Əvvəlcə tərəddüd edib, amma sonda razılaşıb. Nəticə özünü çox gözlətməyib.

Hətta Ermənistanın Qarabağa həsr olunmuş Teleqram kanallarında şərhçilər Qalstanyanın çıxışını “qıcıq” kimi qiymətləndiriblər. “O, yeni heç nə demədi, lakin çoxları üçün onun çıxışı faktı 2018-ci ildə, Paşinyanın İctimai Televiziya Şirkətinə məxsus Radio Evinə girdiyi zaman baş vermiş hadisələri xatırladıb. Düzdür, fərq onda idi ki, gələcək baş nazir qapıları sındırdı və Qalstanyan içə içəri buraxıldı”, - politoloq Tiqran Köçəryan xatırladıb. Ekspert hesab edir ki, arxiyepiskopun perspektivləri hələ də onun fikirlərini etirazçı auditoriyaya nə dərəcədə effektiv çatdıra bilməsindən asılıdır və bu, kifayət qədər təsir edici olaraq qalır.

“May ilə müqayisədə Qalstanyanın indi uğur qazanmaq şansı daha da azdır. Onun tərəfdarları azalıb, həvəsi də azalıb. Çox güman ki, o, öz hərəkatını yeni inkişaf mərhələsinə çıxarmağa çalışır. Ola bilsin ki, 2026-cı il parlament seçkilərinə hazırlaşır. Amma hələ ki, Qalstanyanın öz partiyasını yaratmağa hazır olduğu, yoxsa kiməsə qoşulmaq istədiyi məlum deyil”, - politoloq Mikael Zolyan bildirib. Ekspertin sözlərinə görə, arxiyepiskop Ermənistanın eks-prezidentləri Robert Köçəryan və Serj Sarkisyanın partiyaları ilə eyni elektorat üçün çalışır. Bu, seçicilərin təxminən 20-25%-ni təşkil edir. “Ola bilsin ki, onlar Qalstanyanın köməyi ilə tərəfdarlarının sayını artırmağa ümid edirdilər, lakin görünür, buna nail ola bilməyiblər. Əksinə, insanlar ondan üz döndərməyə başlayıblar”, - Zolyan deyir.

### Keşiş, siyasətçi, mənəvi avtoritet...

Öz növbəsində politoloq Hrant Mikaelyan qeyd edib ki, Qalstanyanın potensialı mayın 9-da Paşinyana istefa vermək üçün bir saat vaxt verdikdən sonra azalmağa başlayıb. İyunun 12-də etirazçıların zorakılıqla dağıdılmasından sonra onun tərəfdarları daha da qızışıblar. “Bundan başqa, Qalstanyanın siyasi mövqeyi ilə bağlı problemi var. Onun öz həmvətənlərinə hansı statusda müraciət etdiyi bəlli deyil: keşiş, siyasətçi, mənəvi avtoritet... Eyni zamanda, hakimiyyət ona qarşı durmağı öyrənib. Bundan əlavə, ölkədə yaxşı iqtisadi vəziyyət yaranıb ki, bu da kütlənin passiv əhval-ruhiyyəsini gücləndirib. Buna baxmayaraq, Qalstanyan hələ də bir növ etiraz fəaliyyətini davam etdirə bilər”, - Mikaelyan deyib.

Baqrat Qalstanyanın başçılıq etdiyi “barışmaz” müxalifətin Respublika meydanında keçirilən mitinqi bir daha iqtidara gəlməyə çalışanların alçaqlığını göstərdi. Qalstanyanın Ermənistan cəmiyyətində populyarlığından və onun ideyalarının tam olmaması bəllidir. Baqratın avantürizmi, Qarabağ klanının marioneti rolu onun “müxalifətin yeni lideri” olmasını əngəllədi. Onun İrəvandakı ilk mitinqini xatırlayın - ən mühafizəkar standartlarla orada 35 min insan iştirak edirdi. Amma indiki mitinqdə ən yaxşı halda 2-3 min adam toplaşmışdı.

Həmin Mihran Tsarukyan Respublika meydanında konsert versəydi, daha möhkəm və geniş kütlə toplayardı. Qalstanyanın çağırışına isə bir neçə min insan cavab verdi. Razılaşın, bu, Baqratın Ermənistan cəmiyyətindəki reytinqinin əhəmiyyətli göstəricisidir. Təbii ki, bu qədər tərəfdarı olan Baqrat güc yolu ilə iqtidarı ələ keçirməyi xəyalına belə gətirməməlidir. Amma o, xəyali dünyada yaşamağa davam edir və baş nazir olmaq arzusundadır. Olsun, necə deyərlər, yuxu görməyin ziyanı yoxdur.

Mitinq iştirakçılarının sayının cüzi olmasına baxmayaraq, Qalstanyan Ermənistanın İctimai Televiziyasını ələ keçirmək və canlı yayımda çıxış etmək niyyətində idi. Cübbəli adam nəinki qanunu pozmağa hazırlaşırdı, həm də açıq-aşkar yalan danışırdı. Onun sözlərinə görə, guya o, dəfələrlə PTA ilə əlaqə saxlayıb, mövqeyini təqdim etmək üçün ona efir vaxtının ayrılması tələbi ilə müraciət edib, lakin hər dəfə ona rədd cavabı verilib.

Ardı Səh. 14

# Baqratın süqutu və...

Əvvəli-Səh-13

Qalstanyanın yalan danışdığı açıq-aşkar məlum oldu. PTA-nın bəyanatında deyilir ki, yürüş başlayan andan telekanal Qalstanyana efirə çıxmaq üçün dəvət göndərib, lakin o, razı olmayıb. Buna baxmayaraq, Baqrat və onun nadir tərəfdarları RTA-ya doğru hərəkət ediblər. Və Baqrat orada polis əməkdaşları ilə mübahisə edib, üstəlik, onları məhv etməklə hədələyib. Razılaşın, bu cür davranış cəfəngiyyatlı adam üçün, xüsusən də ölkə rəhbəri olmaq arzusunda olan biri üçün bağışlanmazdır.

Qalstanyan İctimai Televiziyada Petros Kazaryanın verilişində çıxış edəndə nəhayət, ölkədə hamıya aydın oldu ki, ermənilər aldadıcı, aqressiv və qeyri-adekvat bir insanla qarşı-qarşıyadır. Bəs bu, bir din













xadiminin davranışıdırmı? Xeyr, bu, yol quldurunun davranışıdır. Ona görə də eyni quldurlar Robert Köçəryan və Serj Sarkisyan ona tay tutula bilərlər. Artıq bütün ölkə əmin olub ki, Baqrat onların əlində bir marionetdir, birincilər ondan etiraz rəyi lideri formalaşdırmağa çalışırdılar. Bəli, 2018-ci ildən sonra Köçəryanın və Sarkisyanın Ermənistanda hakimiyyətə qayıtmaq şansı yox idi. Onların bunun üçün lazımi elektoratı, nə də ki, insanları səfərbər etmək üçün legitimliyi yox idi. Beləliklə, insanların onun ardınca gedəcəkləri ümidi ilə cübbəli bir adamı meydanlara çıxardılar.

Baqrat keçmiş və indiki siyasi mühitdən kənar bir siyasətçiyə çevrilib, mömin, korrupsioner olmayan etiraz lideri rolunda təsvir edilib. Eyni zamanda, mətbuat 2018-ci ildə İrəvana yürüş edən zaman Qalstanyanın Paşinyanı dəstəklədiyini yazır. Lakin onu ikinci və üçüncü prezidentlər satın almağa müvəffəq oldular və 44 günlük müharibədən qısa müddət sonra onu "rejimə qarşı döyüşçü" kimi formalaşdırmağa başladılar. Lakin cəmiyyət tez bir zamanda Baqratdan məyus oldu, anladı ki, bütün bunlar hazırkı hakimiyyəti devirmək üçündür. İnsanlar indiki hakimiyyətin süqutundan sonra ölkəyə kimin rəhbərlik edəcəyi sualını özlərinə verməyə başlayanda və hətta buna cavab tapanda - təbii ki, 2018-ci ilin yazında devirdiyimiz şəxslər olduğunu ortaya çıxır. Nəticə də bəllidir, müxalifətin bu qədər ciddi və diqqətlə hazırlaşdığı mitinqə cəmi iki min insan qatılır.

### "Bizim kollektiv ağlımız artıq dövlətin itirilməsi ilə barışıb"

"Bu, ən vacib və çətin məqamın gəldiyi yerdir: məğlub bir cəmiyyətin ruh vəziyyətini necə dəyişdirmək olar?. Biz doğrudan da erməni məğlubiyyətini yaxşı bilmirik. Sovet İttifaqının 70 ili, müstəqilliyin 30 ili bizə məğlubiyyət şüuru vəziyyətini unutdurdu. Məğlubiyyət bizə yad, başqalarına adi görünürdü. İndi biz məğlub erməni və məğlub cəmiyyətlə qarşılaşırıq. Bəs məğlub olan erməni heç nə istəmirsə və ya çox pis bir şey istəyirsə, onda necə? Bu barədə ilk dəfə noyabrın 9-dan sonra, Qarabağın süqutunu görəndə düşündüm. Bu, artıq keçmiş qürurlu və rasional Qarabağ deyildi. Bu da böhran idarəçiliyinin uğursuzluğuna və qısa müddətdə tarixi çöküşlərə səbəb oldu. Deməyə qorxuram, amma məncə, bizim kollektiv ağlımız artıq dövlətin itirilməsi ilə barışıb. Hətta sağlam kəsimlər, hətta mübarizə aparanlar da artıq ölkəmizin perspektivinə şübhə ilə yanaşır. Yeni rəhbərliyin əsas vəzifəsi bu əhval-ruhiyyəni dəyişməkdir. Yeni rəhbərliyin hədəfi də bu məsələdir və əgər bunu qəbul etsək, keçmiş və indiki fərqlər yoxa çıxacaq. Belə bir ruh halı ilə cəmiyyət nə yenini, nə köhnəni, nə də indikini istəyir. Beləliklə, fəlakət bizi müşayiət edəcək". Bunu erməni politoloq Vahe Hovhannisyan deyib.

O bildirib ki, ən vacib və çətin məqam da elə buradan gəlir: məğlub cəmiyyətin ruh halını necə dəyişmək olar? Hərəkatının lap əvvəlində Baqrat Srbazan bu prosesə çox uğurla başladı və cəmiyyətdən böyük bir ümidsizlik dalğası qopdu. Bu, hərəkatın emosional mərhələsi idi. Bu, hərəkatın emosional mərhələsi idi. Bu mərhələ necə davam etdirilməlidir ki, insanlar həqiqətən dövlətin perspektivinə inansınlar? Burada insanlar artıq rasional siyasət təklifləri və inanacaqları bir sıra aydın addımlar gözləyirlər. İnanacaqlar ki, bu addımlar nəticəsində ölkənin gələcəyi olacaq.

Biz bütöv bir cəmiyyət imicini itirmişik. Bu gün Ermənistan böyük bir qaçqın düşərgəsinə bənzəyir, müxtəlif keçid məntəqələrinin açılmasını və onun məhv edilməyəcəyinə müəyyən zəmanətlər gözləyir. Ancaq indiki dünya heç bir zəmanət vermir, Yaxın Şərqə baxın. İnteqral cəmiyyət əvəzinə bizdə müxtəlif subkulturalara bölünmüş insanlar kütləsi var. "Yüksək hörmət edilənlərin subkulturası", "Binasızların subkulturası", "Ümidsizlərin subkulturası", "Mübarizə edənlərin subkulturası", "Geçmişlərin subkulturası" və s.

V.Hovhannisyan əlavə edib ki, yeni rəhbərliyin qarşısında duran vəzifələrdən biri də bu seqmentləri ahəngdar cəmiyyətdə yenidən birləşdirmək, daxili barışıq və ümumi məqsədlər üçün imkan yaratmaqdır: "Belə olan halda "keçmiş və indiki" müxalifəti ortadan qaldıran yeganə sual budur: bunu kim edə bilər? Bunu keçmiş, indi, gələcək edəcəkmi, bu əsas deyil, amma əsas odur - ola bilərmi? Bu cəmiyyəti kim bərpa edə bilər ki, yenidən özünə inansın və öz dövlətini bərpa etməyə başlasın?".

### "İrəvan-Bakı "sülh"ü ABŞ demokratlarının seçkilərdə "kozır"ıdır"

"Əminliklə deyə bilərik ki, sülh imzalansa, bu sənədin hər hansı dəyəri olacağına inanmaq sadəlövhlük olardı. Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması ABŞ prezident administrasiyası üçün qarşıdan gələn seçkilərdə ən məqbul "kozır"dır, çünki xarici siyasətin digər sahələrində, məsələn, Rusiya-Ukrayna və ya Fələstin məsələsində demokratların uğur qazanacağı gözlənilmir". Bu fikirləri siyasi strateq və analitik Vigen Akopyan deyib.

Akopyan deyib ki, Vaşinqton İrəvan və Bakını noyabrda keçiriləcək seçkilərə qədər çərçivə sülh müqaviləsi imzalamağa tələsir: "Əgər Ermənistan tərəfi 16 bənddən 13-nü imzalamağa hazır olduğunu bəyan edərsə, o zaman Azərbaycan tərəfi şərtlər irəli sürür - Ermənistan Konstitusiyasının dəyişdirilməsi və müqavilənin tam şəkildə imzalanması. İndi ABŞ ən böyük tələskənlikdədir, çünki onlar üçün bu, PR-dır. Birləşmiş Ştatlar üçün imzalanma mərasiminin özü, necə deyərlər, "şəkil" kadrları Demokrat Partiyasının namizədi Kamala Harris üçün seçkiqabağı başqa bir arqument ola bilər. Ən azı razılaşdırılmış məqamları imzalamağa çağırışlar, ənənəvi hüquqi prosedurlardan yan keçərək Konstitusiya Məhkəməsi vasitəsilə preambulanın ləğvi də eyni məqsədə xidmət edir".

Akopyan əmindir ki, imzalansa belə, bu sənədin hər hansı dəyəri olacağına inanmaq sadəlövhlük olardı: "Ermənistan Konstitusiya Məhkəməsinin qərarı sadəcə olaraq Azərbaycan hakimiyyətinin tələblərinin həyata keçirilməsidir. Əvvəllər Ermənistanın Konstitusiya Məhkəməsi sərhədlərin delimitasiyası komissiyalarının iş qaydalarını konstitusiya kimi tanıyıb. Ekspertlərin fikrincə, Konstitusiya Məhkəməsi bununla da Konstitusiyanın preambulasında Müstəqillik Bəyannaməsinə istinadın hüquqi qüvvəyə malik olmadığını tanıyıb. Ermənistanın hazırkı hakimiyyəti Azərbaycan hakimiyyəti, erməni xalqı və Ermənistanın dövlət qurumları arasında vasitəçilərin, xüsusən də Bakının tələblərinə hüquqi forma verən Konstitusiya Məhkəməsini xatırladır".

Bu arada Akopyan hesab edir ki, Azərbaycan "sülh müqaviləsi"nin imzalanmasını qeyri-müəyyən müddətə ləngidir, getdikcə daha çox, hər biri digərindən mürəkkəb olan yeni tələblər irəli sürür, ancaq yeni gündəm formalaşdırmaq, yeni tələblər irəli sürməkdədir. Amma Bakı tələblərində haqlıdır, çünki heç kim zəmanət verə bilməz ki, yarımçıq imzalanmış sülh sənədindən sonra Ermənistan ilk fürsətdə Azərbaycana hecum etməyəcək.

**V.VƏLİYEV**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Gecə növbəsində işləyirsinizsə...

## *Gecə növbəsində işləyənlər alzeymer xəstəliyinin potensial qurbanıdır*

***Alimlər gecə növbəsində işləyənlərlə ağlını itirmək, yaddaşın silinməsi, həyatına dair heç nəyi və heç kimi tanımamaq kimi əlamətləri olan alzeymer xəstəliyi arasında bağlılıq tapıblar. Mütəxəssislərə görə, gecə işləyənlərin, xüsusilə də, həzm sistemləri başda olmaqla orqanizmindəki dəyişiklər alzeymer xəstəliyinə təkan verir. Bu araşdırma alzeymer xəstəliyinin müalicəsində normal yuxunun nə qədər vacib olduğunu üzə çıxardı.***

### Gecə növbəsi təbii balansı pozur

Məlumat üçün qeyd edək ki, sadəcə Amerikada 15 milyon insan gecə növbəsində işləyir. Bu insanların böyük əksəriyyəti gündüz işindən sonra gecə ikinci işinə gedir. Bu isə sağlamlıq üçün ciddi problemlər yaradır.

Bu ölkədə aparılan bir araşdırma zamanı məlum olub ki, gecə növbəsində çalışan polislərin əksəriyyəti sutkada 6 saatdan az yatır, onların bu göstəricisi sağlamlıq problemlərinin artmasına səbəb olur. Gecə növbəsində işləyən insanların qanındakı serotonin hormonu gündüz növbəsindəm işləyənlərin qanındakı serotonin hormonundan daha azdır. Xoşbəxtlik hormonu hesab edilən bu hormon həm də normal yuxu yaradır, gecələr iş başında mürgüləyən insanların serotonin dəyəri az olduğu üçün onlar özlərini kimsəsiz və bədbəxt hesab edirlər.

Bundan əlavə, gecə növbəsində işləyən insanlarda şəkərli diabet xəstəliyinin yaranma riski də yüksəkdir, gecə işləyən kişilərin gecə işləyən qadınlara nisbətən daha çox şəkərə yaxalanma riski də var. Gecə növbəsində işləyənlərin daha çox ikinci tip diabetə yaxalanır, çünki gecə növbələri bədəndə insulin ifrazını minimuma endirir.

### Qadınlar daha çox zərər görür

Gecələr işləmək məcburiyyətində qalanlarda əsəb, ürək, qandamar xəstəliklərinin çox rastlandığını deyən həkim Rəşad Hüseynovun sözlərinə görə, insan üçün ən doğru yuxu vaxtı gecədir: "Həm zamansız, həm də normadan az yatdıqları üçün gecə növbəsində işləyənlər zamanla sağlamlıq baxımından ciddi problemlərlə üzləşirlər. Xüsusilə də, qadınların gecələr yuxusuzluğa dözümü yoxdur, çünki gündüzlər evin, ailənin qayğıları onları çox yorur, dincəlmədən işləyirlər, üstəlik lazımı qədər yuxu yatmadan gecə növbəsinə çıxırlar. Kişilər gecələr işləsə də gündüzlər yatıb yuxusunu ala, dincələ bilirlər, ona görə gecə növbəsi onları qadınlar qədər yormur".



Qeyd edək ki, son araşdırmalara görə, gecələr işləyən qadınlarda döş xərçəngi riski 30 faiz artır. Əgər qadın ən az 4 il gecə növbəsində işləyibsə və bu növbələr həftədə 3 dəfədən artıqdırsa onda süd vəzisi xərçəngindən şübhələnmək olar. O cümlədən gecələr işləyənlərin bədənində leptin adlı hormon azalır, bu hormon bədəndə və qanda həm insulin, həm də şəkər tarazlığını yaradan hormondur.



### Gecə işi infarktın dostudur

"British Medical Journal"da yayımlanan bir araşdırmaya görə isə gecələr işləyən insanlarda infarkt riski yüksəkdir. 34 araşdırmanın ümumiləşdirilmiş nəticəsinə görə Kanadada 2010-2014-cu illər arasında infarkt hallarının 7 faizi, ifliclərin 1.6 faizinin, qandamar problemlərinin 7.3 faizi gecə növbələrində işləyənlər arasında qeydə alınıb.

İşdə baş verən qəzaların əksəriyyəti də məhz gecələr olur. Kiçik bir araşdırma etdik, məlum oldu ki, Travmatologiya Mərkəzinə qəzalarla bağlı müraciət edənlərin əksəriyyəti gecə növbələri zamanı qəza keçirənlər olur. Normal yuxu yatmayan, yarımürgülü işçilərin diqqətindən qaçan kiçik bir detal böyük faciələrə yol aça bilir. Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə isə gecə növbətçiliyi depressiya yaradan əsas səbəblərdən biridir.

Dünyada bu yöndə aparılan bütün araşdırmalar görə gecə növbəsində işləmək insan beynini tez qocaldır, bu da dolayısı ilə ağlını, yaddaşını tez itirməyə səbəb olur. Fransada 3 min insan üzərində aparılan elmi təcrübə də bunu təsdiqləyir. Könüllülərin sürətli düşünmə, qərar vermə qabiliyyəti və yaddaşı yoxlanıldıqdan sonra məlum oldu ki, gecələr işləyənlərin normal iş saatlarında işləyənlərə nisbətən yaddaşı, çevik qərar vermə qabiliyyəti zəifdir. Doğrudur, beyin də təbii olaraq insan yaşlandıqda yaşlanır, amma gecə növbəsində işləyənlərin beyni ikiqat sürətlə yaşlanır və bu ağlını itirmə, ciddi yaddaş pozuqluqları ilə müşahidə olunan alzeymer zəstəliyinə təkan verir. Araşdırma zamanı məlum olub ki, gecə növbəsində işləyənlər beyinlərinin imkanı özlərindən 6-7 yaş böyük insanların beyin imkanı ilə eynidir.

### Orqanizm məcbur ediləndə

Bugünədək gecə növbəsinin xərçəngə, diabetə, infarkta səbəb olması ilə bağlı bir çox elmi araşdırma aparılıb. Amma insanın bədənində molekulyar dəyişikliyə səbəb olması faktı yeni aşkarlanıb. İnsan onqanizminin normal, təbii tələbatlarına uyğun yuxu, qidalanma, dincəlmə və işləmə sırası var, bu sıraya əməl etmədikdə təbii ki, bir çox sağlamlıq şikayətləri olacaq. İnsan günəşlə birlikdə oyanıb işləməli, hava qaraldıqda isə istirahətini etməlidir. Əksi olduqca orqanizm çaşır, gecə ilə gündüzü səhv salır.



Yuxusuzluq orqanizmə ciddi zərərlər vurur, normal yuxu yatmayan insanlarda bədən temperaturu dəyişir, çevik hərəkətləri tədricən azalır, düşüncə və analiz qabiliyyəti zəifləyir. Türkiyənin məşhur Yuxu Araşdırma Mərkəzinin bu sahədə apardığı araşdırmalar da bunu təsdiq edir. 22 nəfər gecə növbəsində işləyən könüllü üzərində aparılan araşdırmalar sübut etdi ki, oranizm gecələr işləməyə məcbur edildikcə müxtəlif dəyişikliyə məruz qalır. Qan testlərinə görə genlərin 6 faizi günün bəlli vaxtlarında daha aktiv və ya daha passiv formada işləməlidir, amma qeyri-normal yuxu bu genlərin 97 faizinin ahəngini pozur. Qeyd edilir ki, orqanizmdə hər genin öz ritmi var, bu ritm pozulduqda əsəb, depressiya kimi ciddi narahatlıqlar əmələ gəlir. Bu da gecələr işləyənlərin orqanizmində yarana biləcək problemlərdən xəbər verir.



### Gecələr işləyirsiniz, zob xəstəliyinə də hazır olun

İsveç alimlərinin son araşdırması isə gecələr işləyənlərin zob xəstəliyindən daha çox əziyyət çəkdiyini deyir. 20 yaşından gecə işinə başlayan və ən az 3 il işləyən insanlarda zob riski gündüz işləyən yaşıdlarına nisbətən 50 faiz artır.16-70 yaşlı 13 min könüllü üzərində aparılan araşdırma gecə növbəsinin insanda ürək, qan-damar, xərçəng kimi xəstəliklərə səbəb olduğu faktını təsdiqləmiş oldu.



Ümumiyyətlə, növbəli iş insanda bioloji saatı pozur, təbii tələbatların süni halla ödənməsinə yol açır. İnsan normalda səhər tezdən oyanmalıdır, amma gecə növbəsində işləyənlər səhərlər yatmağa hazırlaşır. Normal insan orqanizmi səhər günəşini, sübh oksigenini tələb edir, amma gecə növbəsində işləyən pəncərəsinə qara pərdələr çəkilmiş qaranlıq otaqda yatmağı seçir. Gündüzlər işləyən insanlar işdən sonra kiçik gəzintini, idmanı seçir, gecə növbəsində işləyən insanlar isə işdən sonra dərhal yatır, axşamadək yataqda olur, sonra isə gecə növbəsinədək gününü televizorun qarşısında keçirir. Buna görə də gecə növbəsində işləyənlərdə piylənmə kimi problem də geniş yayılıb. Üstəlik, günəşlə az təmasda olduğu üçün bu insanlarda D vitamini əskikliyi müşahidə edilir, D vitamini çatışmazlığı isə beyinin öz funksiyasını yerinə yetirməsinə mane olur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
5 oktyabr
2024-cü il

# Bu gün güclü geomaqnit qasırğası olacaq - XƏBƏRDARLIQ



***Günəşdə aktiv oblastlarda baş verən güclü alışmalar hesabına oktyabrın 5-6-da Yerdə güclü geomaqnit qasırğası baş verəcək.***

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından Axşam.az-a verilən xəbərə görə, Günəş aktivliyinin artması hesabına M sinif (R1-R2-minor-radiodalğaların yayılmasını zəif əngəlləyə bilən) alışmaların, eyni zamanda X(R3-güclü) alışmaların olacağı proqnozlaşdırılır. 4 oktyabr gündüz saat 12 radələrindən başlayaraq 6 oktyabr da daxil olmaqla Yerin geoomaqnit sahəsində qasırğalar müşahidə olunacaq.

5-6 oktyabr tarixlərində günün əksər hissəsində baş verəcək geomaqnit qasırğalar G3(güclü) səviyyədə baş verəcək. 6 oktyabrdan etibarən geomaqnit qasırğasınln zəifləyəcəyi, fon səviyyəsinə düşəcəyi proqnozlaşdırılır.

# Bakıda yük avtomobili iki bacını vurub - biri vəfat edib

**Bakıda yük avtomobili iki bacını vurub. Hadisə Binəqədi rayonu, Biləcəri qəsəbəsində qeydə alınıb. Aqil Səmədov idarə etdiyi "Mercedes Benz Axor" markalı qoşqulu yük avtomobili ilə Cəmilə Eyvazova və bacısı Elmira Eyvazovanı vurub. Nəticədə bacılardan Cəmilə Eyvazova aldığı xəsarətlərdən ölüb. Faktla bağlı cinayət işi başlanılıb.**



# Bu futbolçu "Mançester Siti"dən 100 milyon funt sterlinq istəyir



İngiltərənin "Mançester Siti" klubunun norveçli hücumçu Erlinq Holannla müqavilə müddətinin uzadılması ilə bağlı danışıqları dalana dirənib. Bu barədə "TEAMtalk" məlumat yayıb.

Mənbənin sözlərinə görə, tərəflər 24 yaşlı futbolçunun müqaviləsindəki təzminatın məbləği ilə bağlı razılığa gələ bilmirlər. Holann sərbəst qalma məbləğinin 100 milyon funt sterlinq olmasını istəyir. Klub rəhbərliyi isə bu məbləği çox kiçik hesab edir. Tərəflər arasında danışıqların yaxın həftələrdə də davam etdiriləcəyi gözlənilir.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. PressaİnformMMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Okan Buruk "Qalatasaray" azarkeşlərindən üzr istədi



***"Qalatasaray"ın baş məşqçisi Okan Buruk UEFA Avropa Liqasının Liqa mərhələsinin 2-ci turu çərçivəsində RFŞ-lə heç-heçə etdikləri matç haqqında danışıb. İstanbul təmsilçisi oyunda 2:0 hesabı ilə öndə olsa da, RFŞ 2 dəfə fərqlənib və görüş bərabərliklə yekunlaşıb.***

Okan Buruk buna görə "Qalatasaray" azarkeşlərindən üzr istəyib: "Məyusuq. Üzr istəyirik. Bizə yaraşmayan bir nəticə göstərdik. 2:0 hesabı ilə önə keçdiyimiz üçün qələbə qazanacağımızı düşünərək eyforiyaya qapıldıq. Rəqibə ciddi yanaşmalı olduğumuz anlar var idi. Bunu bacarmadıq. Konsentrasiya əksikliyi bizi cəzalandırdı".

Qeyd edək ki, 2 oyundan sonra "Qalatasaray" Avropa Liqasının turni cədvəlində 4 xalla 8-cidir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700